27 fevral 2019 №16 (1601) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# 26 fevraldan 27 il ötdü... Unutmadıq...

## Xocalı soyqırımının ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib

1992-ci il fevralın 26-da erməni silahlı dəstələrinin keçmiş sovet ordusunun 366-cı alayının köməyi ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocalı şəhərində törətdiyi dəhşətli soyqırımından 27 il ötdü.

Xocalıda 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın və 70 qoca xüsusi vəhşiliklə qətlə yetirilib. 1275 sakin erməni əsirliyinin dəhşətlərini yaşayıb. Qırğın nəticəsində 130 uşaq yetim qalıb, 8 ailənin bütün üzvləri öldürülüb.

XX əsrin son onilliyində dünyanın gözü qarşısında baş verən bu faciə bəşəriyyətin vicdanına yazılan, insanlıq və ləyaqət lövhəsinə vurulan qara ləkədir. Bu acının miqyası sonsuz, yaddaşımızda yeri silinməzdir...

* * *






Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yürüşdə iştirak ediblər.

Paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başlayan və on minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ümumxalq yürüşünün iştirakçıları qanlı qırğının günahsız qurbanlarının – xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretlərini, 27 il əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkilləri, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adlarının, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis dillərində plakatlar və transparantlar tutmuşdular. Yol kənarlarındakı monitorlarda, binaların fasadlarında və eyvanlarında "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Rədd olsun erməni faşizmi!", "Xocalı – XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Viran edilən Xocalı yenidən dirçələcək" və s. şüarlar nümayiş etdirilirdi.

*davamı səh. 2-də*

## Görkəmli xanəndə Hacıbaba Hüseynovun 100 illik yubileyi qeyd ediləcək

Prezident İlham Əliyev fevralın 22-də Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, tanınmış pedaqoq, Xalq artisti Hacıbaba Hüseynəli oğlu Hüseynovun 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda vurğulanır ki, 2019-cu ilin mart ayında anadan olmasının 100 illiyi tamam olan Hacıbaba Hüseynov qədim xanəndəlik sənəti ənənələrinin layiqli davamçılarından biri kimi muğamı və bədii sözü ahəngdar şəkildə uzlaşdıraraq yüksək ifaçılıq mədəniyyətinin parlaq nümunələrini yaradıb. Təsirli və məlahətli səsə malik sənətkar mahir ifaçısı olduğu rəngarəng muğamlarla yanaşı, çoxsaylı təsniflər və xalq mahnıları ilə musiqisevərlərin qəlbində silinməz iz qoyub. Hacıbaba Hüseynov daim saflığını qorumağa çalışdığı muğamın tədrisi sahəsində də uzun illər səmərəli fəaliyyət göstərib və məşhur xanəndələr nəslinin yetişdirilməsinə böyük əmək sərf edib.

Sərəncamda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə Xalq artisti Hacıbaba Hüseynovun 100 illik yubileyi ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirmək tapşırılıb.

## Avropa Parlamentinin üzvləri Xocalı qurbanlarını yad etməyə çağırıblar

Xocalı soyqırımının ildönümü ərəfəsində Avropa Parlamentinin 60-dan çox üzvü bəyanat imzalayıb. Bəyanatda bildirilir ki, gələcəkdə bəşəriyyətə qarşı belə cinayətlərin qarşısını almaq məqsədilə Xocalı soyqırımının günahsız mülki qurbanlarının xatirəsi ehtiramla yad edilməlidir.

"Hesab edirik ki, gələcəkdə bəşəriyyətə qarşı belə cinayətlərin bir daha baş verməməsi üçün Xocalıda törədilmiş dəhşətli hadisələr zamanı həyatını itirmiş insanların xatirəsini yad etmək böyük əhəmiyyət kəsb edir. 27 il öncə Azərbaycanın Dağlıq Qarabağ regionunda baş vermiş Xocalı qətliamının günahsız qurbanlarının xatirəsini böyük hüznlə yad edir və onların ailələrinə başsağlığı veririk. Xocalı faciəsi zamanı həyatını itirmiş insanların ailələrinin kədərini bölüşürük. Biz, Avropa Parlamentinin üzvləri bütün həmkarlarımızı Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etməyə və hər il bu günü qurbanların xatirəsinə hörmət əlaməti olaraq anım günü kimi qeyd etməyə çağırırıq", - deyə bəyanatda vurğulanır.

Xatırladaq ki, ötən ilin fevralında ilk dəfə Avropa Parlamentinin 22 deputatı Xocalı qətliamının müharibə cinayətləri kimi tanınması ilə bağlı bəyanatla çıxış edib. Ötən müddətdə bu təşəbbüsə qoşulanların sayı üç dəfə artıb. Bəyanatı imzalayan deputatlar Avropa İttifaqına üzv ölkələrin yarısından çoxunu (28 üzv ölkədən 15-i) və Avropa Parlamentində yer alan 8 siyasi qrupdan 6-sını təmsil edirlər.

## İlaxır çərşənbələrdən birincisi – Su çərşənbəsi

Qışın üçdə biri olan 40 günlük Böyük çillə, ardınca 20 günlük Kiçik çillə, hələ üstəlik Boz ayın bir həftəsi də arxada qalıb. Artıq günlər bahara doğru yol alıb. Novruzun müjdəsi olan dörd ilaxır çərşənbədən birincisi də özünü yetirdi.



Fevralın 26-da ilaxır çərşənbələrdən birincisini – Su çərşənbəsini yaşadıq...

Qədimlərdən bu yana ulularımız sərt qışda yaz ümidi ilə yaşayar, Yeni günün – Novruzun gəlişini səbirsizliklə gözləyərdilər. Novruzqabağı dörd ilaxır çərşənbəni bacardıqca sevinclə qeyd edər, ocaq çatar, süfrə açardılar.

İnanclara görə, Novruz öncəsi dörd ilaxır çərşənbə özlüyündə dünyanın yaranmasını ehtiva edir. Su, Od, Yel və Torpaq təbiətin oyanması, yenidən dirilməsi anlamını verir. Bu çərşənbələr həm də insanın dörd ünsürdən yaradılması haqqında dini-mistik görüşləri də özündə simvollaşdırır.

Ötən gecə yola saldığımız Su çərşənbəsi xalq arasında həm də "əzəl çərşənbə", "gözəl çərşənbə", "gül çərşənbə", "sular Novruzu" adlandırılır. Bütün mifik qaynaqlarda su həyat, dirilik, sağlamlıq və xoşbəxtlik mənbəyi sayılır.

Mifoloji dünya modelində su dünyanın özülü, həyatın başlanğıcıdır. Azərbaycan folklorunda su əzəli, əbədi həyat, ölümsüzlük, dirilik rəmzi kimi geniş yer tutur. Xalqımızın inamında suyun rəmzləşməsi onun əcdad sayılması, and yeri olması ilə də sıx bağlıdır.

*davamı səh. 2-də*



## "Xocalı bu olub"

Sofiya şəhərinin tarixi məkanlarından olan Mərkəzi Hərbi Klubda Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunan anım mərasimi keçirilib. Mərasimdə Azərbaycan Dövlət Pantomima Teatrının Xocalı soyqırımına həsr edilmiş "Xocalı bu olub" tamaşası Sofiya şəhərində nümayiş olunub.

*səh. 3*

## "Cəzasız cinayət"

Fevralın 22-də Muzey Mərkəzinin konfrans zalında Azərbaycan İstiqlal Muzeyinin təşkilatçılığı ilə "Cəzasız cinayət" adlı sənədli filmin təqdimatı və eyniadlı sərgi keçirildi. Filmin ssenari müəllifi, rejissoru və prodüseri Bakı Dövlət Universitetinin (BDU) əməkdaşı, İtaliyanın Beynəlxalq İqtisadi Siyasi Araşdırmalar İnstitutunun üzvü Leyla Rəşiddir.

Filmin nümayişindən öncə qonaqlar muzeyin foyesində Xocalı soyqırımına həsr edilmiş rəsm əsərlərindən ibarət sərgiyə baxdılar.

Filmin müəllifi Leyla Rəşid bildirdi ki, ekran əsərində Xocalı soyqırımının səbəb və nəticələrindən, tarixindən bəhs olunur, bu qətliamın erməni şovinistlərinin və onların havadarlarının azərbaycanlılara qarşı törədikləri terror və kütləvi qırğın aktlarının yeni mərhələsi olduğu vurğulanır. Ekran işində əsir və girov götürülmüş Xocalı sakinlərini, soyqırımı şahidlərini və bu vəhşəti öz gözləri ilə görüb qələmə alan xarici jurnalistlərin ifadələri ilə bu soyqırımının təkcə azərbaycanlılara deyil, bütövlükdə bəşəriyyətə qarşı yönəlmiş cinayət olduğu əsaslandırılır.

*davamı səh. 4-də*

## Xoş xatirə-təəssüratlar professoru - Əkbər Ağayev

Onun ali məktəblərdə apardığı "xarici ədəbiyyat tarixi", "tənqid tarixi" və s. kurslarına ümumbakı tələbələrinin bütün milli-təəssübkeş qismi müştaq idi...

Məsələn, bu bənzərsiz pedaqoq dərs deməyə başladığı hər yeni kurs tələbələrinə ədəbiyyat siyahısı yazdırırkən, hər dəfə də bir çəmlə deyərdi: "Uşaqlar, bizim kitablarımızdakı ilk iki-üç abzasdan sonrakı fikir və müddəaları tamam başqa bir diqqətlə oxuyun".

*səh. 6*

"Aprel yüksəkliyi" sənədli filminin təqdimatı



*səh. 3*

İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş "Şairə ithaf" adlı rəsm müsabiqəsi keçirilir

*səh. 5*



Balacalar üçün "Çay dəsgahı"

*səh. 5*

# 26 fevraldan 27 il ötdü... Unutmadıq...

*əvvəli səh. 1-də*

Ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı davamlı işin bir mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.

* * *

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva abidənin önünə tər güllər qoydular.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.

* * *

Ümumxalq yürüşündə Rusiyadan gələn nümayəndə heyəti də iştirak edirdi.






Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Rusiyadan gələn nümayəndə heyəti ilə görüşüb söhbət etdilər.

Heyətə Rusiya Federasiyası Dövlət Dumasının üzvləri, tanınmış politoloq, yazıçı və jurnalistlər daxildir.

Sonra Prezident İlham Əliyev Rusiyanın "Rossiya-24" kanalına müsahibə verdi.

* * *

Tarixi faktlar göstərir ki, azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, əzəli torpaqlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları zəminində başlanan Dağlıq Qarabağ münaqişəsi və işğalçılıq müharibəsinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı oldu.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə müharibədən əvvəl 7 min insan yaşayırdı. 1991-ci ilin oktyabrından şəhər Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə mühasirəyə alınmışdı. 1992-ci il fevralın 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal etdilər. İşğalçılar Xocalını darmadağın edərək xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər.

Bu müdhiş soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn və müvafiq konvensiyaların kobud şəkildə pozulmasıdır.

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində soyqırımı ilə bağlı gerçəklər geniş beynəlxalq ictimaiyyətə çatdırılır. Bu istiqamətdə aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.

Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib, Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb, sənədli filmlər nümayiş etdirilib, sərgilər təşkil olunub.

Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda növbəti ümumxalq yürüşü dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcək. Ordumuzun mübarizə əzmini təsdiq edən 2016-cı ilin Aprel döyüşləri və ötən ilin mayında Naxçıvan əməliyyatı sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq...

## "Təqsirkarlar cəzalandırılmayınca, biz hamımız xocalılı olmalıyıq"

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar "News.ru" internet portalına müsahibə verib.

Səfir deyib ki, Liditse çexlər, Oradur-sür-Qlan fransızlar, Xatın belaruslar üçün necə bir faciədirsə, Xocalı da azərbaycanlıların gözündə belə bir dəhşətli faciədir. Bu günədək dünyanın 16 ölkəsinin parlamenti və ABŞ-ın 20-dən çox ştatı tərəfindən Xocalı soyqırımı ilə bağlı qətnamələrin qəbul olunduğunu deyən səfir "Xocalıya ədalət!" kampaniyasının təşəbbüsçüsü - Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən faciənin bütün dünyada tanıdılması istiqamətində böyük iş aparıldığını diqqətə çatdırıb.

"Müxtəlif ölkələrin gəncləri baş verənləri pisləmək və gələcəkdə bənzər hadisələrə yol verməmək məqsədilə bu hərəkata qoşulurlar. Bu faciəyə diqqəti çəkmək məqsədilə hər il Moskvada, həmçinin dünyanın hər yerində tədbirlər keçirilir", - deyə P.Bülbüloğlu bildirib.

Səfir, həmçinin gələcəkdə digər ölkələr tərəfindən də o dövrün hadisələrinə daha obyektiv qiymət veriləcəyini istisna etməyib. "Təqsirkarlar cəzalandırılmayınca, biz hamımız xocalılı olmalıyıq", - deyə diplomat bəyan edib.

## Əsrin faciəsinin hüznlü bədii hekayəti

Fevralın 25-də Milli İncəsənət Muzeyində Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş tədbir keçirildi.

"XX əsrin faciəsi – Xocalı soyqırımı" adlı tədbirdə Mədəniyyət Nazirliyinin nümayəndələri, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən müəssisələrin rəhbərləri və əməkdaşları iştirak edirdi.

Bədii kompozisiya şəklində təqdim edilən tədbirdə qeyd olundu ki, 1992-ci il fevralın 26-na keçən gecə Azərbaycan xalqının tarixinə qanla yazılıb. Erməni vandallarının Xocalı sakinlərinə qarşı törətdiyi soyqırımı aktı mənfur düşmənin ümumbəşəri, insani dəyərləri heçə saydığını ortaya qoyub. Həmin müdhiş gecədə 613 nəfər, o cümlədən 63 uşaq, 70 qoca, 106 qadın amansızlıqla qətlə yetirilib. Azərbaycan xalqı Xocalı qətliamını heç vaxt unutmayacaq.

Tədbirdə bir-birini əvəz edən musiqi, tamaşa və bədii qiraət həmin gecə yaşananları bir daha xatırladırdı. Faciənin dərin hüznünü Prezident təqaüdçüsü Çinarə Quliyeva öz rəqsi ilə,



Rauf Hacıyev adına 15 nömrəli Musiqi məktəbinin şagirdi, beynəlxalq müsabiqələr laureatı Cəmil Sədizadə S.Slonimskinin "Zınqırov" əsərinin ifası ilə çatdırdı.

Bakı Uşaq Teatrının aktyorları Mehman Dilqəmoğlu və Nərminə Məmmədzadə "Xocalı" şeirini səsləndirdi. Daha sonra "Vətən" tamaşası nümayiş olundu.

Anım mərasimi L. və M.Rostropoviçlər adına 21 saylı Musiqi məktəbinin şagirdi Kənan Ağayevin təsirli çıxışından sonra səhnədə üçrəngli Azərbaycan bayrağını qaldırılması və C.Hacıyev adına 3 nömrəli Musiqi məktəbi xorunun ifasında himnimizin səsləndirilməsi ilə yekunlaşdı.

**LALƏ**

## "Əsgər papağı" nümayiş olunub

Şuşa Dövlət Musiqili Dram Teatrının kollektivi Xocalı soyqırımının ildönümü ilə əlaqədar anım mərasimlərində iştirak edib.

Azərbaycan Dillər Universiteti və Beynəlxalq Muğam Mərkəzində keçirilən mərasimlərdə Elnurə Abdullayevanın "Əsgər papağı" tamaşası nümayiş olunub.

Bundan başqa, teatrın kollektivi Bakı Biznes Universitetində "Xocalım, ay Xocalım..." adlı ədəbi-bədii kompozisiya təqdim edib.

## "Mənim bir obam vardı..."

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Qaradağ rayonu Qızıldaş qəsəbə Mədəniyyət evində Xocalı faciəsinin ildönümünə həsr olunmuş tədbir təşkil olunub.

Tədbirdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəis müavini Nazim Əliyev, rayon İcra Hakimiyyətinin Qızıldaş qəsəbəsi üzrə nümayəndəsi Əli Hüseynov, qəsəbə bələdiyyəsinin sədri İdris Alışanov, məktəblilər, qəsəbə sakinləri iştirak ediblər.

Mədəniyyət evinin rəsm dərnəyi üzvlərinin Xocalı faciəsinə həsr olunmuş əl işləri sərgisinə baxış keçirilib. Sonra 180 saylı tam orta məktəbin şagirdlərinin ifasında "Mənim bir obam vardı" adlı kompozisiya təqdim olunub.



## Kinorejissor Tofiq Tağızadənin xatirəsi anılacaq

Martın 1-də Muzey Mərkəzində görkəmli kinorejissor, Xalq artisti Tofiq Tağızadənin 100 illiyi münasibətilə tədbir keçiriləcək. Tədbir Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Film Fondunun birgə təşkilatçılığı ilə reallaşacaq.

Xatirə tədbirində sənətkarın həyat və yaradıcılığından söz açılacaq, milli kino sənətinin inkişafında xidmətlərindən bəhs olunacaq.

"ARB Aranfilm" yaradıcılıq mərkəzinin istehsalı olan (rejissor Yeganə Əbdülməmmədova) "Tofiq Tağızadə - 100" sənədli filmi nümayiş olunacaq.

## İlaxır çərşənbələrdən birincisi

*əvvəli səh. 1-də*

Əski zamanlarda həmin gün insanlar günəş doğmadan bulaq başına gedər, təzə suda əl-üzünü yuyar, "azarım-bezarım suya" deyib onun üzərindən atlanar, bulaq başında niyyət edər, suyun ətrafında bir sıra mərasimlər keçirər, yeni günün gəlişini bayram edərdilər.

Xalq arasında su ilə bağlı xeyli məsəllər var. İnanclara görə, süfrəyə su dağılması aydınlıqdır, su içən adamı qəfil vurmazlar, su içən adamı ilan çalmaz, lal axan sudan keçməzlər, su olan yerdə dirilik olar, su ehsandır... Bütün bunlar suyun müqəddəsliyini ifadə edir.

Su çərşənbəsini yola saldıq. Novruza üç çərşənbə qaldı...

## Sonsuz kədər, bitməyən acı...

Gəncə Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Gəncə şəhər MKS-nin Uşaq şöbəsində Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə 27 saylı məktəb-liseyin şagirdləri Xocalı faciəsinə həsr olunmuş şeirlər söyləyib, "Xocalı harayı" kompozisiyası ilə çıxış ediblər.



* * *

Bərdə Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Tərtər rayon Mədəniyyət Mərkəzində Xocalı faciəsinin ildönümü ilə



əlaqədar tədbir təşkil edilib. Mədəniyyət mərkəzinin nəzdində fəaliyyət göstərən dram dərnəyinin üzvləri tərəfindən hazırlanmış "Sən qalib gələcəksən" adlı ədəbi-bədii kompozisiya nümayiş olunub.

* * *

Quba rayon Heydər Əliyev Mərkəzi və Quba "ASAN Xidmət" mərkəzinin birgə təşkilatçılığı ilə "Xocalı faciəsi – qan yaddaşımızdır" adlı tədbir-kompozisiya keçirilib. Kompozisiya Quba "ASAN Xidmət" mərkəzinin könüllüləri tərəfindən hazırlanıb. Sonda "Xocalı" sənədli filmi nümayiş etdirilib.

* * *

Masallı rayonunda Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar yürüş keçirilib.

Bayraq meydanından başlayan yürüş şəhərin mərkəzindəki Qəhrəmanlar parkında başa çatıb. Nizami Gəncəvi adına rayon Mədəniyyət Mərkəzinin Xalq teatrı üzvlərinin ifasında faciəni özündə əks etdirən tamaşa nümayiş olunub.



# "Aprel yüksəkliyi" sənədli filminin təqdimatı keçirildi

Fevralın 26-da Nizami Kino Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı, polkovnik Şükür Həmidovun döyüş yoluna həsr olunmuş "Aprel yüksəkliyi" sənədli filminin təqdimatı keçirildi.

Ekran əsəri Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən "Salnaməfilm" studiyasında lentə alınıb.

Mərasimdə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, nazir müavinləri Rafiq Bayramov, Sevda Məmmədəliyeva, nazirliyin kollektivi, ictimaiyyət nümayəndələri, hərbçilər iştirak edirdi.

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Tədbirdə çıxış edən kinoşünas, Əməkdar incəsənət xadimi Ayaz Salayev Xocalı soyqırımı haqqında danışdı. Bildirdi ki, bəşəriyyət tarixində ən qəddar, vəhşi cinayətlərdən olan Xocalı qətliamının iştirakçıları hələ də layiqli cavablarını almayıblar. Qeyd olundu ki, qabaqcadan planlaşdırılan kütləvi və amansız qırğın aktı Xocalıda yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilib.






Milli Qəhrəman Şükür Həmidov çıxış edərək Xocalı soyqırımı, Qarabağ müharibəsi haqqında danışdı. O, 2016-cı ilin Aprel döyüşləri zamanı Azərbaycan Ordusu hissələrinin düşmənə vurduğu zərbədən bəhs edərək ümidvar olduğunu bildirdi ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad olunacağı gün uzaqda deyil.

Daha sonra "Aprel yüksəkliyi" sənədli filmi nümayiş olundu. Filmin ssenari müəllifi və rejissoru Zamin Məmmədov, operatoru Ömər Kutuyevdir.

Film 2016-cı ilin Aprel döyüşləri zamanı ordumuzun mühüm strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyini azad etməsində şücaət göstərən Ş.Həmidovun döyüş yolundan bəhs edir. Ş.Həmidov Azərbaycan Respublikası Prezidentinin 22 aprel 2016-cı il tarixli sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

**F.HÜSEYNOV**

# "Qara qar çiçəyi"

## Xocalı soyqırımına həsr olunan tamaşa təqdim olundu

Fevralın 25-də Azərbaycan Dövlət Musiqili Teatrında "Qara qar çiçəyi" adlı tamaşa təqdim edildi. Gənclər və İdman Nazirliyinin dəstəyi ilə ərsəyə gələn tamaşa "Xocalıya ədalət!" kampaniyası çərçivəsində nümayiş olundu. Səhnə əsərinin ssenari müəllifləri Yefim Abramov və Leyla Bəyim Cəfərova, rejissoru Xalq artisti Vaqif Əsədovdur.

Əvvəlcə tədbirin aparıcısı, Əməkdar artist Elnur Kərimov səhnə əsəri haqqında məlumat verdi. Bildirdi ki, tamaşa Xocalı soyqırımı qurbanlarının xatirəsinin anılması və faciənin 27-ci ildönümünün keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncama və "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının müvafiq bəndinə (gənclər arasında vətənpərvərlik, dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət hisslərinin aşılanması) uyğun olaraq hazırlanıb.

Sonra tamaşa təqdim olundu. Əsərdə Xocalı soyqırımının dəhşətli məqamlarına diqqət çəkilir. Erməni quldurları Xocalıya hücum edir. 10 yaşlı Natəvan Hacıyevanın valideynləri güllələnir, özü isə verilən işgəncə nəticəsində görmə qabiliyyətini itirir və komaya düşür. Onu qardaşı Fikrət və qonşuları Pərviz xilas edirlər. Natəvan xəstəxanada 17 gündən sonra özünə gəlir. Oğlanları uşaq evinə aparırlar. Natəvanı isə görmə əngəlli uşaqlar üçün internata göndərirlər...

Bu dəhşətli hadisədən 25 il ötür. Natəvanın qardaşı Fikrət tanınmış jurnalistdir. Onun həyatının yeganə məqsədi o dəhşətli gecənin həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq və haqq-ədaləti bərpa edəcək müstəqil komissiyaların yaradılmasına, canilərin cəzalandırılmasına nail olmaqdır. Onun da, Azərbaycanın müstəqil təşkilatlarının da səsi səhrada bir səda kimi səslənir. Beynəlxalq təşkilatlar bu səsə və tələblərə biganə və laqeyddir. Lakin Fikrət təslim olmur. Onun cəlladları həbs etmək uğrunda yazdığı məqalələri Avropa məmurlarını qıcıqlandırır, hiddətlərinə səbəb olur.

Pərviz Tibb İnstitutunda təhsil alır və Natəvanla əlaqəni itirir. Natəvan isə artıq məşhur şairədir. Onun iztirablı şeirləri müxtəlif Avropa dillərinə tərcümə edilir, sevilərək oxunur. Lakin o, hələ də faciənin ağrı-acısı ilə yaşayır. Demək olar ki, gecələr yatmır. Həkimlər isə ona kömək etməkdə acizdirlər. Onun problemi haqqında Hollandiyada yaşayan məşhur psixoterapevt Patrik de Varda eşidir. O, Natəvanı Amsterdama psixoterapiya kursu keçməsi üçün dəvət edir. Həkim əmindir ki, Natəvanı bu xəstəlikdən sağalda biləcək. Seanslardan biri zamanı İnterpolun nümayəndələri Anna Mari Verner və Neyl Şeldon Patrik de Vardanın yanına gəlir. Onlar Natəvandan qardaşı Fikrət Hacıyevi tapmaları üçün kömək etməsini xahiş edirlər...



Məlum olur ki, həkim Natəvanın qardaşı Fikrətin uşaqlıq dostudur. Onun əsl adı isə Pərviz İsmayılovdur. Həkim Patrik de Vard heç vaxt kimliyini gizlətmədiyini bildirir və deyir ki, o, Avropada təkcə həkimlik təcrübəsini artırmaq üçün deyil, həm də dostuna ədalətə nail olmaq üçün kömək etmək məqsədilə yaşayır...

Səhnə əsəri maraqla qarşılandı.

**FARİZ**

# Bakı Xoreoqrafiya Akademiyasında "Xocalı həftəsi"

Bakı Xoreoqrafiya Akademiyası Təhsil Kompleksində (BXA) "Xocalı həftəsi" çərçivəsində silsilə tədbirlər keçirilib.

BXA-da Xalq rəssamı Xanlar Əhmədovun Xocalı soyqırımına həsr olunmuş "Fəryad" adlı fərdi sərgisi nümayiş olunub.

Tədbirdə Bakı Xoreoqrafiya Akademiyasının rektoru, Əməkdar elm xadimi, professor Timuçin Əfəndiyev çıxış edərək bildirib ki, insanlığa qarşı ən dəhşətli qırğınlardan biri kimi tarixə düşmüş Xocalı soyqırımı, illər keçsə də, heç zaman unudulmayacaq. Rektor "Xocalı həftəsi" çərçivəsində keçirilən tədbirləri yüksək qiymətləndirərək bunun gənc nəslin vətənpərvərlik ruhunda böyüyüb tərbiyə olunmasına töhfə olduğunu deyib.



Həmçinin BXA-nın tam orta məktəbinin şagirdləri tərəfindən Xocalı soyqırımının ildönümünə həsr olunmuş "Başını dik tut, Vətən oğlu" adlı ədəbi-bədii kompozisiya keçirilib.

Məktəbin direktoru Bəşarət Hüseynova, 27 il əvvəl baş vermiş dəhşətli qətliam haqqında danışıb.

Təqdim olunan kompozisiyada "Ağla, qərənfil", "Xocalı faciəsi" rəqsləri ifa edilib, soyqırımına həsr olunmuş şeirlər səsləndirilib və "Xocalılıların həyatında bir gecə" səhnəciyi nümayiş olunub.

"Xocalı həftəsi" çərçivəsində BXA kollecinin tələbələri tərəfindən dəyirmi masa da keçirilib. Kollecin direktoru Aynur Hüseynova Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin nəticələrindən söz açıb.

Tələbələr "1992", "Qan yaddaşımız", "Tariximizin qara səhifəsi", "Xocalıya ədalət!", "Qanlı fevral gecəsi", "Xocalını unutma!" və s. mövzularda məruzələrlə çıxış ediblər.

# Şəhidlərin xatirəsinə musiqi axşamı



Fevralın 25-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqi zalında Xocalı şəhidlərinin əziz xatirəsinə həsr olunmuş orqan konserti keçirilib.

Filarmoniya və Bakı Musiqi Akademiyasının (BMA) birgə təşkilatçılığı ilə gerçəkləşən tədbir şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Anım konsertində dirijor, Əməkdar artist Yulizana Kuxmazovanın bədii rəhbərliyi ilə BMA-nın tələbə xoru, beynəlxalq müsabiqələr laureatı Şəfəq Abdullayeva, Səbinə Bəylərbəyova, Əməkdar müəllim Rasimə Babayeva, solistlər İlham Nəzərov (kontrtenor), İslamə Abdullayeva (soprano), Orxan Hüseynli (xanəndə) Azərbaycan və xarici bəstəkarların əsərlərini səsləndiriblər.

Konsertin bədii rəhbəri Əməkdar incəsənət xadimi, professor Tahirə Yaqubovadır.

# "Qanlı dəhliz"



Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində xalqımızın yaddaşlardan silinməyən faciəsi – Xocalı soyqırımının ildönümünə həsr edilmiş "Qanlı dəhliz" adlı bədii kompozisiya hazırlanıb.

Müəllim və şagirdlərin ifasında Asəf Zeynallının "Muğamsayağı" əsəri, F.Əmirovun "Sevil" operasından Sevilin ariyası, "Füzuli" kantatasından II hissə səslənib, xoreoqraf Emil Pənahovun hazırladığı "Ananın fəryadı" pantomim-rəqs nömrəsi təqdim olunub. Vəfa Babayeva (violin), Regina Məcidova (vokal), Lalə Hüseynova (xanəndə), konsertmeysterlər Nazilə Əliyeva, Mətanət Nurullayeva, Nəbi Quliyev, Samirə Musayeva, xor və xanəndə sinfinin şagirdləri çıxış ediblər.

Rəssam Əli Ağadadaşovun Xocalı soyqırımını əks etdirən rəsm əsərləri nümayiş olunub.

Tədbir Əməkdar müəllim, xormeyster Zemfira Nurullayevanın ifasında səslənən şeirlə yekunlaşıb.

# "Xocalı bu olub"

## Pantomima tamaşası Bolqarıstan paytaxtında göstərilib



Sofiya şəhərinin tarixi məkanlarından olan Mərkəzi Hərbi Klubda ölkəmizin Bolqarıstandakı səfirliyi və Müqəddəs Kliment Oxridski adına Sofiya Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin birgə təşkilatçılığı və Azərbaycan Dövlət Pantomima Teatrının iştirakı ilə Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunan anım mərasimi keçirilib.

Mərasimdə Bolqarıstanın dövlət qurumlarının və ölkədə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Milli Məclisinin deputatı, Azərbaycan-Bolqarıstan parlamentlərarası əlaqələr qrupunun rəhbəri Rauf Əliyev, diasporumuzun üzvləri, tələbələr, "Azərbaycanın Dostları" Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri, mədəniyyət xadimləri iştirak ediblər.

Xocalı soyqırımı haqqında iştirakçılara ətraflı məlumat verən Azərbaycanın Bolqarıstandakı səfiri Nərgiz Qurbanova 1992-ci il fevralın 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin keçmiş sovet ordusunun əsasən ermənilərdən ibarət 366-cı motoatıcı alayının köməyi ilə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərinə xaincəsinə hücum edərək dinc sakinləri qəddarlıqla qətlə yetirdiklərini bildirib.

Xocalı faciəsinin soyqırımı aktı olduğunu deyən və onu törədənlərin cinayət məsuliyyətinə cəlb olunmasının vacibliyini qeyd edən səfir Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyasından bəhs edib, 13 ölkənin, ABŞ-ın 22 ştatının Xocalı soyqırımını tanıdığını və pislədiyini bildirib.

Səfirin çıxışından sonra mərasim Azərbaycan Dövlət Pantomima Teatrının Xocalı soyqırımına həsr olunmuş "Xocalı bu olub" tamaşası ilə davam etdirilib.

Səhnə əsərində Xocalı həqiqətləri, 1992-ci ilin 26 fevralında erməni işğalçılarının dinc azərbaycanlı əhaliyə qarşı həyata keçirdikləri soyqırımı pantomima teatrı estetikasında nümayiş olunub.

Mərasimin sonunda Xocalı soyqırımına məruz qalmış soydaşlarımızın xatirəsinə ehsan süfrəsi açılıb. Həmçinin Sofiya şəhərindəki "Banyabaşı" məscidində Xocalı şəhidlərinin ruhuna "Quranı-Kərim"dən ayələr oxunub və dualar edilib.

# Bəşəri kədərin musiqidə ifadəsi

Xocalı faciəsinin bəşəri kədəri incəsənətin bir çox sahələrində olduğu kimi, musiqidə də əksini tapıb, bəstəkarların hər zaman həyəcanla müraciət etdikləri mövzuya çevrilib. Bu mövzuda təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da müxtəlif janrlarda musiqi əsərləri yaranıb.

Bu mövzuda ilk əsərlərdən biri bəstəkar Məmməd Quliyevin musiqisi faciəli notlarla dolu olan "Simfoniya-rekviyem"idir.

Sonrakı illərdə Arif Mirzəyevin "Xocalı uşaqlarına laylay" orqan kompozisiyası, Oqtay Rəcəbovun "Xocalı avazları" çoxhissəli oratoriyası, Yusif Mirişlinin "Xocalı-613" simfonik poeması, Azər Dadaşovun "Xocalıya ədalət" simfonik plakatı, Faiq Nağıyevin xor üçün "Xocalı harayı" əsəri, Nazim Quliyevin "Xocalı" operası, Elnarə Dadaşovanın "Xocalı laylası" kimi əsərlər ərsəyə gəldi.

Tofiq Bakıxanovun "Hümayun" simfonik muğamı, Nəriman Məmmədovun "Yeddinci simfoniya"sı, Azad Zahidin "Rekviyem"i də qan yaddaşımızın notlardakı əksidir.

Qarabağ münaqişəsi və Xocalı hadisələrinə həsr olunmuş ən böyük musiqi əsəri Xalq artisti, professor Firəngiz Əlizadənin "İntizar" operasıdır.

Son dövrlərdə Xocalı faciəsi ilə bağlı ərsəyə gətirilmiş əsərlərdən Rəna Qədimovanın "Sarı gəlin" balladasını, Rüfət Ramazanovun simli orkestr üçün "Təəssürat", orqan və xanəndə üçün "And" əsərlərini, İlham Azmanlının orkestr üçün "Ağı" musiqisini göstərmək olar.

Başqa ölkələrin musiqi sənəti təmsilçiləri də Xocalı mövzusuna biganə qalmayıb. Rusiyanın Xalq artisti Aleksandr Çaykovski "Xocalı" matəm musiqisini bəstələyib. Fransız bəstəkarlar Pyer Tiloyun "Xocalı-613", tanınmış qazax bəstəkarı Balnur Kıdırbekin "Xocalı qurbanları" əsərləri bu dəhşətli faciəyə həsr olunub.

№16 (1601)
27 fevral 2019
www.medeniyyet.az

# “Cəzasız cinayət”

## Sənədli film dünyanı 27 il əvvəl yaşanan soyqırımını unutmamağa çağırır

əvvəli səh. 1-də

Bu cinayətin təşkilatçılarının və iştirakçılarının bu günədək cəzalandırılmadığı, beynəlxalq qurumların Xocalı soyqırımına hüquqi qiymət vermədiyi vurğulanır.

Tədbirdə İstiqlal Muzeyinin direktoru Fəridə Şəmsi Xocalı soyqırımı haqqında danışdı. Bildirdi ki, 1992-ci il fevralın 26-na keçən gecə Xocalı şəhərində erməni qəsbkarları tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca qətlə yetirilib. Bu qətliamla bağlı dünyanın bir sıra ölkələrində müvafiq qərarlar qəbul edilsə də, Xocalı qırğınını törədənlər hələ də cəzasını almayıb.

Sonra “Cəzasız cinayət” sənədli filmi nümayiş olundu.

Filmdə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xocalı Cinayət İşi üzrə İstintaq Qrupunun materiallarından,



Almaniya Xarici İşlər Nazirliyinin Siyasi Arxivinin, Hərbi Tarix və Strateji Araşdırmalar İdarəsi Arxivinin sənədlərindən, xarici ölkələrin mətbuat nümunələrindən istifadə olunub.

Təhsil nazirinin müavini Firudin Qurbanov filmin çəkilişində əməyi olan hər kəsə təşəkkür etdi. Bildirdi ki, Xocalı soyqırımı xalqımızın tarixində ən ağrılı faciələrdən biridir. Ümummilli lider



Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına ilk dəfə hüquqi-siyasi qiymət verilib. 1994-cü ildən ulu öndərin təşəbbüsü ilə Azərbaycan parlamenti tərəfindən 26 fevral “Xocalı soyqırımı günü” kimi qeyd edilir.

Mərasimdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva bildirdi ki, Xocalı soyqırımı iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. 27 il öncə 1992-ci il fevralın 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücum edib. Beynəlxalq hüquq normalarını pozaraq şəhərin dinc əhalisinə qarşı soyqırımı həyata keçirib.

Nazir müavini ulu öndər Heydər Əliyevin Xocalı soyqırımı ilə bağlı fikirlərini xatırlatdı. Bildirdi ki, ümummilli lider tariximizin bu acı səhifəsinin heç vaxt unudulmayacağını qeyd edərək bu mövzuda filmlərin çəkilməsinin, kitabların yazılmasının, bütün bunların gənclər arasında təbliğ olunmasının, Azərbaycanın sərhədlərindən kənarda yayılmasının vacibliyini xüsusi vurğulamışdı.

Sonda filmin müəllifi Leyla Rəşid tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkür etdi.

**Savalan FƏRƏCOV**

# “Xocalı şikəstəsi” kitabı təqdim olunub







Milli Kitabxanada “Xocalı – XX əsrin soyqırımı” adlı kitab sərgisi və Ulduz Qasımın “Xocalı şikəstəsi” kitabının təqdimatı keçirilib.

Tədbiri kitabxananın direktoru Kərim Tahirov açaraq Xocalı faciəsinin 27-ci ildönümü haqqında Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən təsdiq olunan tədbirlər planı üzrə mədəniyyət ocaqlarında, o cümlədən kitabxanalarda müxtəlif mərasimlərin, təqdimatların təşkil olunduğunu bildirib: “Xocalı faciəsi və onun qurbanları haqqında kitablar nəşr edilir, yerli və xarici mətbuat səhifələrində yazılar dərc olunur. Rusiyada yaşayan yazıçı soydaşımız Ulduz Qasımın “Xocalı şikəstəsi” romanı da Xocalı faciəsini və hadisələrin sonrakı inkişafını ümumiləşmiş, obrazlı şəkildə əks etdirən bir əsərdir”.

Ulduz Qasım çıxış edərək romanın real hadisələr əsasında yazıldığını bildirib. Yazıçı, publisist Rəhilə Gülgün gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, tariximizin təbliği üçün əsərin əhəmiyyətini vurğulayıb.

Sonda tədbir iştirakçıları “Xocalı – XX əsrin soyqırımı” adlı sərgi ilə tanış olublar.

* * *

Fevralın 23-də isə “Xocalı şikəstəsi”nin “Azərkitab” Kitab Təbliğatı Mərkəzində təqdimatı keçirildi.

Nəşrin redaktoru, şair, Əməkdar mədəniyyət işçisi Vaqif Bəhmənli müəllif haqqında məlumat verdi. Bildirdi ki, Ulduz Qasım (İmanova) BDU-nun Jurnalistika fakültəsini bitirib. 80-90-cı illərdə mətbuatda publisistik yazıları, kiçik hekayələri dərc olunub. Sonradan Moskva şəhərinə köçsə də, Ulduz xanım gəncliyin və tələbəliyin doğma yuvası Bakını, dünyaya göz açdığı Cəbrayıl rayonunu unutmayıb. O, “Mən aşiqəm, Qarabağda”, “Tələbə gündəliyi”, “Qürbət Zöhrəsi”, “Açılmayan sirlər” kitablarının müəllifidir. “Qürbət Zöhrəsi” İstanbulda türk dilində də çapdan çıxıb.

Ədəbi tənqidçi Elnarə Akimova romanın ideya-bədii xüsusiyyətlərindən danışdı. Bildirdi ki, əsərdə Xocalıda yaşayan bir ailənin başına gətirilən müsibətlərdən bəhs olunur. Ailənin başçısı Fərhad həkim iki ayağını itirir, Fəridə ananın gözü qarşısında balaca oğlu Fuad erməni quldurları tərəfindən param-parça edilir. Belə bir vaxtda onlar meşədə anası ölmüş körpə erməni uşağına rast gəlirlər. Uşağı götürüb özləri ilə Bakıya gətirir, böyüdüb ali təhsil verirlər: “Göründüyü kimi, əsərdə məğlubiyyət var, Xocalı yerləyeksan edilib. Ancaq mənəviyyatın xaosu yoxdur. Azərbaycanın mənsub olduğu milli-mənəvi dəyərlərin qələbəsi var...”.

Milli Məclisin deputatı Tahir Rzayev qeyd etdi ki, Xocalı haqqında keyfiyyətindən asılı olmayaraq, bütün yazılanlar tarixdir. Bu mənada Moskvada yaşaya-yaşaya düşüncələrini Xocalıdan bəhs edən əsərə çevirmək təqdirəlayiq işdir.

Romanı Türkiyə türkcəsinə uyğunlaşdıran şair, yazıçı İmdad Avşar tarixi hadisələrin gələcək nəslə, eləcə də dünyaya çatdırılmasında ədəbiyyatın və sənətin rolundan danışdı, romanın başqa dillərə də tərcümə olunmasının zəruriliyini vurğuladı.

Müəllifə minnətdarlığını bildirən millət vəkili Jalə Əliyeva dedi ki, Xocalı soyqırımı haqqında çox kitablar yazılmalı, xalqımızın başına gətirilən bu müsibətlər ədəbi əsərlərdə əksini tapmalıdır.

Əslən Xocalıdan olan şair Ələmdar Quluzadə, şair, yazıçı Əlirza Xələfli, şair Əli Mahmud və başqaları roman haqqında fikirlərini bölüşdülər.

Sonda müəllif Ulduz Qasım əsərə verdikləri yüksək dəyərə görə tədbirin iştirakçılarına minnətdarlığını bildirdi.

**LALƏ**

# Türkiyənin şəhərlərində Xocalı qurbanları yad edilib

Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Ankaranın Qızılcahamam rayonunda yerləşən Xocalı abidə-muzey kompleksində anım mərasimi təşkil olunub.

Azərbaycanın Türkiyədəki səfirliyi ilə yerli bələdiyyənin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə səfir Xəzər İbrahim, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, TBMM-in üzvü Əmrullah İşlər, Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, Qızılcahamam bələdiyyəsinin sədri Muhiddin Güney və başqalarının çıxışları dinlənilib.

Çıxışlarda 27 il əvvəl Xocalıda ermənilər tərəfindən törədilən insanlıq əleyhinə cinayətin səbəb, məqsəd və dəhşətli nəticələrindən danışılıb. Diqqətə çatdırılıb ki, saxta “soyqırımı” iddiası ilə Türkiyəni günahkar çıxarmağa çalışan Ermənistan, o cümlədən bu məsələdə təcavüzkar dövlətə dəstək verənlər dünya ictimaiyyəti tərəfindən daha geniş şəkildə qınanılmalı və ittiham olunmalıdır. Rəsmi hissədən sonra Xocalı abidə-muzey kompleksinin önünə əklil, gül dəstələri qoyulub.

* * *

İstanbulda Türk Dünyası Araşdırmaları Vəqfi “Xocalı soyqırımı və erməni problemi” mövzusunda tədbir keçirib.

Tədbirdə çıxış edən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü, professor Aygün Attar XX əsrin əvvəllərində Ermənistanın yerləşdiyi ərazinin əslində tarixi İrəvan torpağı olduğunu vurğulayaraq qeyd edib ki, bu bölgələrdə ermənilərin məskunlaşdırılması çar Rusiyasının məkrli planlarının tərkib hissəsi idi. Tədbirdə Türkiyənin elm adamları, ziyalılar, media nümayəndələri iştirak ediblər.

* * *

Azərbaycanın Türkiyənin Qars şəhərindəki baş konsulluğunun təşəbbüsü ilə qardaş ölkənin şərq bölgəsində fəaliyyət göstərən QHT-lər İğdırda Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar anım yürüşü keçiriblər.

İğdırın mərkəzində qurulmuş çadırda Xocalı soyqırımına həsr olunan sərgi təşkil edilib. Yürüşdə “Dünya, Xocalıya səssiz qalma!”, “Xocalı şəhidlərini rəhmətlə, ehtiramla anırıq!” və sair şüarlar səslənib.

* * *

Bu günlərdə Ankarada keçirilən III Milli Birlik və Bərabərlik Simpoziumunda da Xocalı soyqırımından söz açılıb. İLESAM-ın (Türkiyə Elm və Ədəbiyyat Əsəri Sahibləri Məslək Birliyi) təşkilatçılığı, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin, TİKA-nın dəstəyi ilə gerçəkləşən simpoziuma türkdilli ölkələrdən elm adamları, yazarlar qatılıb.

Azərbaycan Yazıçılar Birliyinin (AYB) mətbuat xidmətinin rəhbəri, İLESAM-ın Azərbaycan təmsilçisi Xəyal Rza, Azərbaycan Müəllifləri İctimai Birliyinin sədri İsmayıl Məmmədkərimov, AYB-nin Moskva bölməsinin sədri, professor Abuzər Bağırov iştirak ediblər. Simpoziumun panelində çıxış edən X.Rza Xocalı soyqırımının və ortaq dərdlərimizin dünyaya tanıdılmasında türkdilli xalqların daha aktiv işbirliyinin vacibliyini vurğulayıb.

**Mehparə SULTANOVA**
**Ankara**

# Daşkənddə anım mərasimi

Ölkəmizin Özbəkistandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Xocalı faciəsinin 27-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib.



Tədbirdə Özbəkistanda fəaliyyət göstərən xarici ölkələrin diplomatları, beynəlxalq təşkilatların təmsilçiləri, rəsmilər, elm, mədəniyyət xadimləri, soydaşlarımız iştirak ediblər.

Əvvəl iştirakçılar foyedə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Xocalı soyqırımına həsr olunmuş kitablar və fotosərgi ilə tanış olublar.

Səfir Hüseyn Quliyev soyqırımının ağır nəticələri haqqında danışıb. Sonra Özbəkistan Xalq Çalğı Alətləri Kamera Orkestrinin ifasında Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr edilən konsert-rekviyem keçirilib. Bədii rəhbəri professor Firuzə Abduraximova olan konsertdə klassik Azərbaycan bəstəkarları - Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Hacı Xanməmmədov, Vasif Adıgözəlov, Asəf Zeynallı, eləcə də özbək bəstəkarlarının əsərləri səslənib. Beynəlxalq festivallar laureatı Səncər Kadirov “Ayrılıq”, “Darıxıram sənin üçün, Şuşam” əsərlərini ifa edib.

# Unudulmayacaq tarix...

Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib.



Sumqayıtın Tarixi Muzeyində “Diqqət, danışır Xocalı şahidləri” adlı tədbirdə “Niyə Xocalı” adlı sənədli film nümayiş olunub.

C.Cabbarlı adına Mədəniyyət evinin özfəaliyyət kollektivləri N saylı hərbi hissədə “Yaralı Azərbaycana daşan qan gölü - Xocalı!” adlı ədəbi-bədii gecə keçiriblər. Nizami Gəncəvi adına Kitabxana-klubda Xocalı soyqırımına həsr olunmuş ədəbi-bədii kompozisiya təşkil olunub. Zəngilan Rayon Tarix-Diyarşünaslıq Muzeyində sərgi nümayiş olunub.

Sumqayıt şəhər 4 saylı Diyarşünaslıq klubunun rəsm dərnəyinin üzvləri Elmira Əliyeva və Orxan Əzizov Xətai Sənət Mərkəzində gerçəkləşən “Şəhid şəhər” uşaq rəsm müsabiqəsinin yekun sərgisində diplomla mükafatlandırılıblar.

* * *

Xaçmaz Regional Mədəniyyət İdarəsinin mədəniyyət ocaqlarında Xocalı faciəsinin ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Quba Rayon Tarix-Diyarşünaslıq Muzeyində gerçəkləşən tədbirdə muzeyin elmi işçisi Məltəm Məlikməmmədova, Quba Rayon İcra Hakimiyyətinin əməkdaşı Anar Məmmədov, tarix elmləri namizədi Mənsur İlyasov çıxış ediblər.

Şabran Rayon Mərkəzi kitabxanasında “Xocalı qisasa çağırır bizi” adlı ədəbi-bədii kompozisiya təqdim olunub. Kitabxananın əməkdaşları Zülfi Ağarzayeva, Natəvan Quliyeva tariximizin qanlı səhifəsindən söz açıblar.

* * *

Kürdəmir rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə ötən iki əsrdə erməni millətçiləri tərəfindən xalqımızın dəfələrlə soyqırımına məruz qaldığı diqqətə çatdırılıb. Xocalı sakinləri çıxış edərək həmin gecə erməni quldurlarının törətdikləri faciənin dəhşətlərindən danışıblar.

Sonra İmişli rayon Mədəniyyət Mərkəzinin hazırladığı kompozisiya nümayiş olunub. Tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində təşkil edilən “Xocalı soyqırımı uşaqların gözü ilə” mövzusunda əl işləri sərgisinə də baxıblar.

* * *

Qazax rayon Mədəniyyət Mərkəzinin metodisti M.Mehdiyevanın ssenarisi əsasında “Xocalı faciəsi - XX əsrin genosidi” adlı ədəbi-bədii kompozisiya keçirilib. Tədbirdə Ağstafa Regional Mədəniyyət İdarəsinin Qazax rayonu üzrə nümayəndəsi Valeh Vəliyev çıxış edib. Q.Hacımahmudova adına məktəbin şagirdlərinin ifalarında Xocalı faciəsinə həsr olunmuş şeirlər səslənib.

* * *

Sabirabad rayon Mədəniyyət Mərkəzində Xocalı soyqırımının 27-ci ildönümü münasibətilə sərgi açılıb.



Mədəniyyət mərkəzinin A.İsgəndərov adına Xalq teatrının nəzdində fəaliyyət göstərən əlillərdən ibarət “Mübarizlər” teatr qrupu isə Xocalı soyqırımının ildönümü ilə əlaqədar Bərdə və Cəlilabad rayon məktəblərində “Könlüm keçir Qarabağdan” adlı ədəbi-bədii kompozisiya ilə çıxış edib. Səhnə əsəri maraqla qarşılanıb.

# Balacalar üçün “Çay dəsgahı”

**Bakı Uşaq Teatrı Cəlil Məmmədquluzadənin “Çay dəsgahı” pyesi əsasında hazırlanmış tamaşanı Azərbaycan Teatr Xadimləri İttifaqının böyük səhnəsində təqdim etdi.**



Ölkə Prezidentinin sərəncamı ilə bu il 150 illiyi qeyd edilən böyük ədibin yubileyinə töhfə olan birpərdəli pyesə aktrisa-rejissor Könül Şahbazova-Qasımova quruluş verib. Tamaşada əksəriyyəti kollektivə yeni qəbul edilmiş gənclər oynayır.

Daha çox 7-12 yaşlı uşaqlar üçün nəzərdə tutulmuş, yarımənzum-yarınəsr dili ilə yazılmış pyesin əsasında hazırlanmış tamaşa orijinal musiqi tərtibatı, məşhur “Çay” mahnısının improvizə mətni, səhnə və alleqorik geyim tərtibatı ilə diqqəti çəkdi. Rəssam Sevda Məmmədova, musiqi tərtibatçıları Mahir İbrahimov və Rauf Hüseynlinin “Çay dəsgahı”na yaraşdırdıqları geyim və melodiyalar balaca tamaşaçıların xoşuna gəldi.

Fiziki və mənəvi təmizliyin, görülən işə (çay dəsgahı) vicdanlı yanaşmanın (xanım və ağanın nökər Əliyə iradları) aşılandığı tamaşa əslində həm də böyüklərə ünvanlanıb. Müəllifin öz əsəri ilə demək istədiklərini uşaqların dərk edib örnək alacağı ruha köklənmiş yaradıcı heyət yalnız bir cəhəti nəzərə almamışdı.

Bugünkü uşaqlar Mirzə Cəlil dövrünün uşaqları deyillər və öz zamanı üçün yetərincə milli və ana dilinə ən yaxın tərzdə yazılmış, lakin bu gün arxaik sözlər və ərəb-fars tərkibləri, izafətlərlə zəngin sayılan əsərin XXI əsr uşaqlarının səhnədən eşidib dərk etməsi üçün xeyli çətindir. Amma bu məqamda tamaşanın yaradıcı heyətinə bir afərin düşür. Bütün aktyorlar pyesin mətnini çox yaxşı mənimsəmişdilər və danışıqları, Mirzə Cəlilin təbirincə desək, tamam qəlatsiz idi.

**G.MİRMƏMMƏD**

# “Söz” layihəsində növbəti görüş



Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan “Söz” ədəbi layihəsinin növbəti qonağı tanınmış yazıçı, bestsellerlər müəllifi, beynəlxalq mükafatlara, o cümlədən ədəbiyyat üzrə “LiFFt” festivallar festivalının qızıl medalına layiq görülmüş Varis (Yolçuyev) olub.

Əvvəlcə layihənin rəhbəri Nigar Həsənzadə qonaq barədə məlumat verib. Qeyd edib ki, Varis onun diqqətini yalnız yazdığı bestsellerlərin sayına (11 əsər) görə cəlb etməyib. Yazıçıda onu cəlb edən həm də qeyri-adi ədəbi taleyi, uğura doğru yolu, intellektual, eləcə də olduqca təsirli yazıçılıq xəttidir. Diqqətə çatdırıb ki, yazıçının 6 ölkədə 19 kitabı işıq üzü görüb. O, Azərbaycanda ən çox oxunan müəlliflərdən biridir, “Sonuncu ölən ümidlərdir” romanı 7 dəfə təkrar nəşr olunub.

Vurğulanıb ki, yazıçı uğur və geniş oxucu sevgisi qazanması üçün yalnız əsərlərinə savadlı və maraqlı “skelet” qurmur, həm də hər bir əsərində sevgi, xeyirxahlıq, təəssübkeşlik, mərhəmət, habelə Vətən məfhumlarını xatırlatmağı unutmur. Varis kitablarında xalqının, dövlətinin milli maraqlarını əks etdirir, əcnəbi oxucuda bu maraqlara hörmət və ehtiram aşılayır.

Sonra yazıçı oxucuları maraqlandıran sualları cavablandırıb. Bildirib ki, hər bir yazıçı öz oxucusunun tələbini bilməli, onların fikrini dəyərləndirməli, maraqlarına hörmətlə yanaşmalıdır. Bundan əlavə, yazıçı üçün onun oxucularının yaş həddi, auditoriyası da önəm daşıyır.

Qeyd edək ki, Varis 2011-ci ildə Mədəniyyət Nazirliyinin “Qızıl kəlmə” ədəbi mükafatına layiq görülüb. Həmçinin Antuan de Sent-Ekzüperi (Fransa) diplomu, Rusiya Yazıçılar Birliyinin “İlin yazıçısı” diplomu, Avrasiya Yazarlar Qurumunun (Türkiyə) M.Kaşğari adına mükafatı ilə təltif olunub.

**LALƏ**

# İblis səhnədə bir oyun oynasın ki...

**Azərbaycan Dövlət Rus Dram Teatrında Xalq yazıçısı Elçinin “İblisin oyunları” pyesinin məşqləri gedir. Əsərə Finlandiyada yaşayan soydaşımız, tanınmış rejissor Kamran Şahmərdan quruluş verir.**



Tamaşanın dekor və geyim üzrə rəssamı Valeri Polunovski (Sankt-Peterburq) Rusiyadan dəvət edilib. Əsas rolları Xalq artisti Məbud Məhərrəmov, Əməkdar artist Məlek Abbaszadə, eləcə də aktyorlar Rüfət Nəsirov, Teymur Rəhimov, Bella Safina, Zaur Terequlov, Rumiyə Ağayeva və başqaları oynayır.

Tamaşanın musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Vladimir Neverov, videoinstalyasiyanın müəllifi Aqil M.Quliyevdir. Səhnə əsərinin xoreoqrafik həlli ilə Xalq artisti Kamilla Hüseynova məşğuldur.

“İblisin oyunları”nın premyerası martın 16-na nəzərdə tutulub.

# Cəfər Cabbarlının “Solğun çiçəklər”i ekranlaşdırılır

**Görkəmli dramaturq Cəfər Cabbarlının anadan olmasının 120-ci ildönümü ilə bağlı İctimai Televiziya və Radio Yayımları Şirkəti Mədəniyyət Nazirliyi ilə birgə ədibin “Solğun çiçəklər” pyesini ekranlaşdırır.**



Şirkətdən bildiriblər ki, peşəkar heyət tərəfindən müasir dövrə adaptasiya edilərək hazırlanan və 8 bölümdən ibarət ekran işi həftədə bir dəfə İctimai Televiziyanın efirində təqdim olunacaq.

Filmin ssenari müəllifləri Xəyyam Abdullayev, Reyhan İsayeva, quruluşçu rejissorları Xəyyam Abdullayev, Elməddin Alıyev, quruluşçu operatoru Elman Əliyev, quruluşçu rəssamı Aydın Əsgərov, prodüseri Yalçın Verdiyev, baş prodüseri Balakişi Qasımovdur. Rollarda Elxan Qasımov, Nigar Güləhmədova, Həsənağa Məmmədov, Aynişan Quliyeva və başqaları yer alacaqlar.

# “Mənim ana dilim”



**Bakı Xoreoqrafiya Akademiyası Təhsil Kompleksində (BXA) 21 fevral – Beynəlxalq ana dili gününə həsr olunmuş “Mənim ana dilim” adlı ədəbi-bədii kompozisiya keçirilib.**

Tədbiri BXA-nın tam orta məktəbinin direktoru Bəşarət Hüseynova açaraq əlamətdar günün tarixi haqqında məlumat verib. Bildirib ki, dünyada dil, mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq üçün qeyd edilən bu gün UNESCO tərəfindən 1999-cu ildə təsis olunub. Bu gün, dünyanın bir çox yerlərində olduğu kimi, ölkəmizdə də müxtəlif tədbirlərlə qeyd edilir. Ana dili hər bir xalqın milli varlığının təsdiqidir.

Tədbir ədəbi-bədii kompozisiya ilə davam edib. Şagirdlərin ifasında “Gülebatın”, “Almanı atdım xarala”, “Vəhşilər” rəqsi, Bəxtiyar Vahabzadənin “Ana dili”, Xəlil Rza Ulutürkün “Ana dilim” şeirləri səsləndirilib, səhnəciklər göstərilib.

# Qorxu və dəhşətin sərgisi

**İçərişəhərdəki Şirvanşahlar Sarayı Kompleksində qeyri-adi bir sərgi açılıb: “İnkvizisiya. Orta əsr işgəncə alətləri”...**

“İçərişəhər” Muzey Mərkəzinin direktoru Əminə Məlikova layihə haqqında məlumat verərək bildirdi ki, bu sərginin qeyri-adiliyi onun adından görünür: “Nə qədər ağır olsa da, bəşəriyyətin belə bir dövrü yaşadığı bir həqiqətdir. Sərgidə nümayiş olunan 60-dan artıq eksponat 1983-cü ildən başlayaraq həyata keçirilən layihə əsasında meydana gəlib. 30 nəfərdən artıq tarixçi alim, digər sahələrin tədqiqatçıları araşdırmalar apararaq Orta əsrlər dövründə Qərbi Avropada inkvizisiya məhkəmələrinin tətbiq etdikləri işgəncə alətlərini bərpa ediblər. İllər ərzində müxtəlif ölkələrdə, onlarla şəhərdə nümayiş olunmuş sərgi bu gün Bakıda təqdim olunur”.



Sərgidə Orta əsrlər dövründə katolik kilsəsinin öz hakimiyyətini möhkəmləndirmək məqsədilə cadugər, kafir, dinsiz adlandırdığı, əslində isə bir çox hallarda azadfikirli insanlara qarşı tətbiq etdiyi “inkvizisiya” (İnquisitio Haereticae Pravitatis Sanctum Officium – “Küfr günahlarının istintaqı üzrə müqəddəs şöbə” – Roma Katolik Kilsəsinin xüsusi bölməsi – red.) istintaqı zamanı işlədilən alətlər nümayiş olunur.

Qorxunc, ətürpərdici alətlərin hər biri insanı mənəvi və cismani baxımdan sındırmağa, iradəsini, həyat eşqini məhv etməyə yönəlib. Təsadüfi deyil ki, inkvizisiyanın qurbanları sırasında Cordano Bruno, Nikolay Kopernik, Yan Qus, Qalileo Qaliley kimi mütəfəkkirlər olub.

Layihənin rəhbəri Pyer Luici Kanovi sərginin təşkil olunmasının əsas məqsədindən söz açaraq bildirdi ki, ideya nə olursa olsun, insanlara qarşı zorakılıq yolverilməzdir. Orta əsr alətlərini nümayiş etdirməklə sərgi insanların öz məqsədlərinə nail olmaq üçün bəzən necə dəhşətli üsul və vasitələrə əl atmalarını əyani olaraq göstərir. Ekspozisiyanın əsas məramı insanları əməlləri barədə düşünməyə vadar edir.

**L.AZƏRİ**

# İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş “Şairə ithaf” adlı rəsm müsabiqəsi keçirilir

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Rəssamlar İttifaqı ilə birlikdə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş “Şairə ithaf” adlı açıq respublika rəsm müsabiqəsi elan edir.**




Azərbaycan ədəbiyyatının dünya mədəniyyətinə bəxş etdiyi məşhur sənətkarların sırasında İmadəddin Nəsimi (1369-1417) xüsusi yer tutur. İmadəddin Nəsiminin ümumşərq miqyasında qüdrətli şair-filosof kimi tanınması və qəbul olunması danılmazdır. Bunun başlıca səbəbi onun dünya ədəbiyyatındakı böyük rolu, sarsılmaz iradəsi və möhkəm əqidəsi ilə şəxsiyyətin bütövlüyünün və əzəmətinin nümunəsini göstərmiş nadir sənətkarlardan biri olmasıdır. O, həm də böyük ədəbi məktəbin və Azərbaycan hürufizm ədəbiyyatının görkəmli yaradıcısıdır.

Azərbaycan Respublikası Prezidentinin “Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinin keçirilməsi barəsində” 15 noyabr 2018-ci il tarixli sərəncamı və 2019-cu ili “Nəsimi ili” elan etməsi dövlətimizin böyük sənətkarın yaradıcılığına verdiyi yüksək qiymət və ehtiramın ifadəsidir.

İmadəddin Nəsimi yaradıcılığı zəngin bədii salnamə yaratmağa imkan verən nəhayətsiz mənəvi-estetik qaynaqdır. Bu ədəbi irsə sovet dönəmində - onun 600 illik (1973) yubileyinin keçirilməsi ilə rəssamların yaradıcılıq gündəminə gətirilsə də, o vaxtlar sənətin ideoloji asılılığı arzulanan nəticələrin əldə olunmasına imkan verməmişdir.

Bu mənada yeni müsabiqənin respublikamızın müstəqilliyi dövründə keçirilməsinin məqsədi görkəmli söz xiridarının həyat və yaradıcılığına müstəqil, yaradıcı rəssam baxışını əyaniləşdirmək, onun alt qatı oxucuların düşündürmək və duyğulandırmaq gücündə olan poeziyasının obrazlı-bədii tutumda ifadəsinə imkan verən yeni-yeni rəngkarlıq, qrafika, heykəltəraşlıq əsərlərinin, o cümlədən kitab qrafikası nümunələrinin yaradılmasına nail olmaqdır.

Müsabiqədə Azərbaycan Rəssamlar İttifaqının üzvləri, o cümlədən respublikada fəaliyyət göstərən ali və orta ixtisas məktəblərinin magistr tələbələri iştirak edə bilərlər.

**Müsabiqənin şərtləri**

Müsabiqəyə təqdim olunacaq əsərlərə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Rəssamlar İttifaqının mütəxəssislərindən və tanınmış rəssamlardan ibarət Komissiya tərəfindən baxış keçiriləcəkdir. Heykəltəraşlıq, rəngkarlıq, qrafika (o cümlədən kitab qrafikası), dekorativ-tətbiqi sənət nominasiyaları üzrə mükafatlar və diplomlar təqdim ediləcəkdir;

Kitab qrafikası üzrə müsabiqəyə təqdim olunan əsərlər qrafikanın bütün texnikalarında (rəsm, ofort, linoqravüra, ksiloqrafiya, litoqrafiya, akvarel, qarışıq texnika və s.) yerinə yetirilə bilər. Bu nominasiya üzrə illüstrasiya-əsərlərin ölçüləri A3 və A4 formatında tərtibatsız-çərçivəsiz təqdim olunmalıdır.

Əsərlər “deviz” və “şifr” ilə təhvil verilir. Bağlı zərfin içində iştirakçı rəssamın soyadı, adı, atasının adı, təvəllüdü, telefon nömrələri, əsərin adı, ölçüsü və texnikası qeyd olunmalıdır. Təhvil verilən hər bir əsərin arxa tərəfində “deviz”, “şifr” qeyd olunmalıdır;

Münsiflər heyəti tərəfindən seçilərək I, II, III yerlərə və həvəsləndirici mükafatlara layiq görülən əsərlər Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə (Azərbaycan Dövlət Rəsm Qalereyasına) təhvil verilməlidir.

Müsabiqənin mükafat fondu aşağıdakı qaydadadır:

**Ən yaxşı təsviri sənət nümunəsinin yaradılması üzrə**

I yer (bir nəfər) - 10 000 manat
II yer (bir nəfər) - 7000 manat
III yer (bir nəfər) - 5000 manat

**Həvəsləndirici mükafat**

8 nəfər – hər biri 1000 manat

Hazır əsərlər 2019-cu il oktyabrın 10-dan 15-dək Azərbaycan Dövlət Rəsm Qalereyasına (Bakı şəhəri, Neftçilər prospekti, 49, Muzey Mərkəzinin 1-ci mərtəbəsində 11-ci otaq, əlaqə telefonları: + 99412 493 93 85, +99412 493 86 33) təqdim olunmalıdır.

# Qəzəl müsabiqəsinə yekun vurulub

**Kürdəmir rayon Mədəniyyət Mərkəzində “Nəsimi ili” çərçivəsində gerçəkləşən “Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz, Bu quş dilidir, bunu Süleyman bilir ancaq” adlı qəzəl müsabiqəsinin yekun turu keçirilib. Müsabiqə Kürdəmir Regional Mədəniyyət İdarəsi, AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialı və Kürdəmir rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə gerçəkləşib.**



Tədbiri AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı açaraq İmadəddin Nəsiminin tərəqqipərvər, ictimai-fəlsəfi ideallarla zəngin irsindən, yüksək bədii-estetik səviyyəyə malik poeziyasından, onun yaradıcılığının Azərbaycan ədəbiyyatı tarixində yeni mərhələ təşkil etməsindən, eləcə də türkdilli xalqların ədəbiyyatına təsirindən danışıb.

Müsabiqənin ilkin turlarından seçilmiş qiraətçi şagirdlərin çıxışları dinlənildikdən sonra qaliblər müəyyənləşdirilib. Kürdəmir şəhər 3 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Sahilə Abdullayeva I, 1 saylı tam orta məktəbin 7-ci sinif şagirdi Təranə Heydərova II, 6 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Tünzalə Babayeva III yerlərə layiq görülüblər. Qaliblər fəxri fərmanlarla təltif edilibləр.

**S.QALİBOĞLU**

№16 (1601)
27 fevral 2019
www.medeniyyet.az

## Heydər Əliyev Sarayında anım mərasimi

Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 25-də Heydər Əliyev Sarayında anım mərasimi keçirilib. Tədbirdən öncə Xocalı soyqırımından bəhs edən kitab stendinə baxış keçirilib. Faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Heydər Əliyev Sarayının direktoru, Əməkdar mədəniyyət işçisi Fərhad Babayev çıxış edərək Xocalı soyqırımının Azərbaycan tarixinə ən faciəli səhifələrdən biri kimi daxil olduğunu bildirib, bu qətliamın dəhşətli nəticələrindən bəhs edib. Direktor ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi Xocalı soyqırımının dünya ictimaiyyətinin diqqətinə çatdırılması və tanıdılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr, ərsəyə gələn nəşrlər, filmlər, sərgilər, müxtəlif ölkələrdəki diaspor təşkilatlarımızın keçirdiyi aksiyalar barədə danışıb.

Tədbirdə çıxış edənlər Xocalı qurbanlarının xatirəsinin qan yaddaşımızda əbədi yaşayacağını vurğulayaraq Ermənistanın işğalçı qüvvələri tərəfindən bir gecədə 613 dinc sakinin amansızcasına qətlə yetirilməsinin bütövlükdə bəşəriyyət, insanlıq əleyhinə cinayət olduğunu bildiriblər.

Tədbirin sonunda soyqırımının dəhşətlərini əks etdirən "Xocalı – əsrin faciəsi" adlı sənədli film nümayiş etdirilib.

## Görkəmli ədibin məzarı ziyarət edilib

Görkəmli maarifpərvər şair, yazıçı, dramaturq, pedaqoq Abdulla Şaiqin anadan olmasının 138-ci ildönümü ilə əlaqədar Fəxri xiyabanda məzarı ziyarət edilib.



Anma tədbirinə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Bakı muzeylərinin əməkdaşları, Mədəniyyət və İncəsənət Universitetinin müəllim və tələbələri, Abdulla Şaiqin adını daşıyan 54 nömrəli orta məktəbin müəllim və şagirdləri, Bakıdakı Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin nümayəndələri qatılıb.

Abdulla Şaiqin mənzil-muzeyinin direktoru Ülkər Talıbzadə, muzeyin böyük elmi işçisi Arzu Hacıyeva ədibin həyat və yaradıcılığından danışıblar. Abdulla Şaiqin maarifçilik fəaliyyətindən, "Əlifba" kitabı, dərsliklər ərsəyə gətirməsindən uşaqlar üçün bağça açmaq, kitabxana yaratmaq, kasıb uşaqları, pulsuz oxutmasından bəhs edilib.

Mərasimdə A.Şaiqin əsərlərindən ibarət kompozisiya təqdim edilib.

# Muzeylərdə Xocalıya ithaf tədbirləri

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində Xocalı faciəsinin 27-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə soyqırımının dəhşətlərindən söz açılıb. Sonra rejissor Elçin Musaoğlunun Qarabağ müharibəsi mövzusunda çəkdiyi, milli ruhdan bəhs edən "Nabat" bədii filmi nümayiş olunub. Ekran əsəri 2014-cü ildə Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" kinostudiyasında lentə alınıb.

Tədbirdə Daxili İşlər Nazirliyi Polis Akademiyasının, Azərbaycan Dövlət Turizm və Menecment Universitetinin, Bakı Xoreoqrafiya Akademiyasının müəllim və tələbə heyəti iştirak edib.



* * *

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində "Xocalıya ithaf" adlı tədbir təşkil olunub.

Tədbirdə muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova, şöbə müdiri Xanım Abdinova çıxış ediblər.

Sonra Bakı Musiqi Akademiyasının professoru Leyla Məmmədəliyeva (fortepiano), akademiyanın əməkdaşı Güllübəyim Məmmədova (vokal), tələbələr Gülşən Akın-İbadova (vokal), Aydan Rüstəmzadə (violonçel), Mədinə Süleymanzadə (fortepiano), Maqsud Musazadə (fortepiano), Azərbaycan Dövlət Musiqili Teatrının konsertmeysteri Arzu Hüseynova (fortepiano), beynəlxalq müsabiqələr laureatı Nurlan Cəfərov, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin müəllimi Rəna Zəkiyeva (fortepiano) və şagirdi, beynəlxalq və respublika müsabiqələri laureatı Pərvin Vəlizadənin (tar) iştirakı ilə Xocalı şəhidlərinin xatirəsinə ithaf olunmuş musiqi proqramı təqdim edilib.

* * *

Zərdab rayon Həsən bəy Zərdabi muzeyində "Göynəyir sinəm, Xocalı" adlı tədbir keçirilib.

Muzeyin direktoru Vəfa Bayramova və digər çıxış edənlər Xocalı soyqırımının xalqımızın qan yaddaşından heç vaxt silinməyəcəyini vurğulayıblar.

Zərdab şəhər 1 saylı məktəbliseyinin 5-ci sinif şagirdləri Xocalıya həsr olunmuş kompozisiya ilə çıxış ediblər.

# "Yurd dediyim bu torpaq"

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Xocalı soyqırımına həsr edilmiş "Yurd dediyim bu torpaq" adlı tədbir təşkil olunub.

Tədbirdə "Respublika Xatirə Kitabı" redaksiyasının baş redaktoru, şairə Nəzakət Məmmədova, şair, publisist Zülfüqar Şahsevənli, "Ulduz" jurnalının əməkdaşı Fərqanə Mehdiyeva iştirak ediblər.

Kitabxananın direktoru Şəhla Qəmbərova Xocalı faciəsindən, bu faciənin dünyaya tanıdılması üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Xocalıya ədalət!" kampaniyasından bəhs edib.

Nizami rayon 272 saylı orta məktəbin şagirdlərinin ifasında şair, publisist Nəzakət Məmmədovanın Xocalı faciəsinə həsr etdiyi "Şəhid zirvəsi" poemasından kompozisiya təqdim olunub.

* * *

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında keçirilən "Unudulmayan faciə, sağalmaz yara" adlı musiqili ədəbi-bədii gecədə kitabxananın direktoru Oruc Quliyev, 176 nömrəli tam orta məktəbin tərbiyə işləri üzrə





direktor müavini Palmira Nəbiyeva çıxış ediblər.

Sonra Xocalı faciəsini əks etdirən videoçarx nümayiş olunub. 176 nömrəli tam orta məktəbin şagirdlərinin hazırladıqları "Xocalı harayı" kompozisiyası nümayiş olunub, Xocalı haqqında şeirlər səslənib.

## Yubileylərə həsr olunmuş kitab sərgiləri

Milli Kitabxanada "Cəlil Məmmədquluzadə - 150" adlı kitab sərgisi açılıb.

Kitabxananın direktoru Kərim Tahirov ölkə başçısının müvafiq sərəncamına əsasən Azərbaycanın ədəbiyyat və mədəniyyət tarixində, ictimai fikrində özünəməxsus yeri olan ictimai xadim, publisist, novator yazıçı, dramaturq, Azərbaycanda və türk-müsəlman dünyasında satirik jurnalistikanın əsasını qoymuş Cəlil Məmmədquluzadənin 150 illiyinin ölkəmizdə geniş şəkildə qeyd ediləcəyini bildirib, yubileylə bağlı yeni nəşrlərin hazırlanacağını vurğulayıb.

Daha sonra Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, dosent Aygün Bağırlı, institutun əməkdaşları – filologiya üzrə fəlsəfə doktorları Səadət Vahabova, Gülbəniz Babayeva çıxış ediblər.

Sərgidə ədibin əsərləri, haqqında yazılmış 300-dən çox ədəbiyyat nümayiş olunub.

* * *

Milli Kitabxanada ictimai fikir tarixində, milli ideologiyanın formalaşmasında, ədəbiyyatın və mətbuatın inkişafında əhəmiyyətli rol oynamış mütəfəkkir və ədib Əli bəy Hüseynzadənin anadan olmasının 155 illiyi, Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi, akademik Həmid Araslının 110 illiyi münasibətilə də kitab sərgiləri təşkil edilib.

# Xoş xatirə-təəssüratlar professoru –

### klassik ədəbiyyatşünaslıq və tərcüməçiliyimizin şanlı nümayəndələrindən, ədəbi tənqidimizin tərifli sütunlarından – Əkbər Ağayev

Yaşlı oxucularımızın yaxşı xatırladıqları sovetlər dönəmində tək elə realist ədib yox, müəllimlik də etməyə məhkum alim (və onların dinləyici-oxucu tələbəsi) olmaq da məşəqqət idi; onlar Nizami-Füzuli aləmlərindən yazanda, "Leyli-Məcnun", "Əsli-Kərəm" məhəbbətlərindən, dulusçuluq-keçəçilik peşələrindən, xalça-palaz, muğam-avaz sənətlərindən danışanda belə, NKVD-KQB sənədlərinə düşməməkçün, mütləq sovet-sosializm mütləqiyyəti banilərindən "mübarək" sitatlar gətirməli idilər...

Bu böyük müəllim-alim isə, məhz bu "zərurət"ə görə, hər biri 45 dəqiqədən ibarət akademik saatların 5-də 1-ni "nə var-nə yox"a həsr edərdi. Geniş məlumat-bilik diapazonuna malik bu mahir pedaqoqun çox yanım-dönümcül, bədnəzərdən gizli saxlamağa cəhd etdiyi çox milli-xəlqi bir ürəyi də vardı. Onun ali məktəblərdə apardığı "xarici ədəbiyyat tarixi", "tənqid tarixi" və s. kurslarına ümumbakı tələbələrinin bütün milli-təəssübkeş qismi müştaq idi. Nədən ki o, "auditoriya divarları"nı sosializm yüklü frazeoloji-metodoloji (və o çağ tələbələrinin "mədəni jarqonlar"ından olan "basmaqəliboloji") sarıdan bezikdirmiş "leksiyaçı"lardan deyildi. Məsələn, bu bənzərsiz pedaqoq, dərs deməyə başladığı hər yeni kurs tələbələrinə ədəbiyyat siyahısı yazdırırkən, hər dəfə də bir cümlə deyərdi: "Uşaqlar, bizim kitablarımızdakı ilk iki-üç abzasdan sonrakı fikir və müddəaları tamam başqa bir diqqətlə oxuyun". Hələ bəzən (auditoriyada "qulaq" olmadığına əmin olduğu macallarda), qayıdardı ki, "mühazirələrdə müəllimlərin yerə yox, üzünüzə baxa-baxa dediyi mətləbləri xüsusi diqqətlə dinləmək gərək..."

Tələbə-müəllim xəttindən söz düşmüşkən, filologiya elmləri doktoru Vaqif Yusiflinin bir xatirəsinə işıq tutaq: "Əkbər Ağayev çox məlumatlı adam idi və o zaman hətta heyrətə gəlirdik ki, bu insan, necə ola bilər, klassik ədəbiyyatı da, müasir ədəbiyyatı da eyni dərəcədə mükəmməl bilsin, dünya ədəbiyyatına dərindən bələd olsun. Onun "Xarici ölkələr ədəbiyyatı"ndan mühazirələri o qədər maraqlı, o qədər canlı keçirdi ki, biz özümüzü XIX əsr Avropasında hiss edirdik, Balzakın "səfillər"inə qoşulur, "Şaqren dərisi"nə bürünür, Bayronun romantik qəhrəmanlarının arxasınca gedib Yunanıstanda üsyanlara qatılırdıq…"

Bəli, mükəmməl qəzetçilik, ecazkar tədqiqatçılıq, çox məhsuldar tərcümə, tənqid və təşkilatçılıq seçkinlərindən də olmuş bu fenomen bütün şüurlu ömrünü canlı mühazirə, təlim-tədris MÜƏLLİMİ kimi yaşadı.

Yaxın gələcəyin adlı-sanlı tənqidçisi də olası "zərgər qələmli" alim elə tələbə ikən öz bənzərsiz elmi təfəkkürü, müdrik-müstəqil fikiryürütmə qabiliyyətilə seçilib. Tələbkar oxucu cameəsi tənqid və ədəbiyyatşünaslıq meydanındakı ağır-artilerik qələm sahibləri (M.Arif, M.Cəfər, M.Rəfili, F.Qasımzadə, Ə.Sultanlı, H.Araslı, C.Xəndan və b.) sırasında parlaq bir "Əkbər Ağayev" imzası ilə də tanış olub. Bu imzanın "ilk qələm təcrübəsi"nin (özü də, məlum "repressiyaçağı" dönəmində!) Əhməd Cavadın U.Şekspirin "Otello"sunun tərcüməsinə həsri (və o mənhus alovdan necə xilas olması) isə hələ də tapılmamış bir tapmaca...

…İllər keçdikcə bu "dəlioğlan" alim də yumşalmalı olur. Əlbəttə, öz canı hayına yox, bəzi milli dəyərli sənət nümunələrinin "işə keçirmək" naminə. Məsələn, Y.V.Çəmənzəminlinin "İki od arasında" adı ilə (1937) yazdığı romanı bu tərtibçi ("zorən ehtiyatkarlıq" ucbatından) "Qan içində" adlığıyla nəşrə hazırlayıb…

**Fikrimcə;**

tələbəlik "era"sı yaşamış hər kəsin qəlbində elə müəllimlər olur ki, onları ömrü uzunu xatırlayır, haçansa barələrində yazmaq (və ya yazdırmaq) istəyirsən.



Əkbər Ağayev mənimçün bu qəbil üç müəllimdən biridir. Mir Cəlal və Şirməmməd Hüseynovdan yazmışam, şükür ki, bu qırx beş illik borcumdan da çıxmaq dəqiqələrindəyəm.

Yeri gəlmişkən, bu adamın özü də (yetmiş dörd illik ömründə), bir sıravi insan kimi, yalnız ən xeyirxah işlərlə, bir alim olaraq ən gərəkli mətləblərin, ən məşhur insanların tədqiqi, bir tərcüməçi kimi – yalnız bütün dünya tərəfindən birmənalı qarşılanan müəlliflərin dilimizə çevirmilə məşğul olub. Məsələn, tərcüməçilik görəvinə məxsuslardan bir neçəsini xatırlayaq: A.Puşkin, M.Lermontov, A.Çexov, L.Tolstoy, V.Belinski, A.Qaydar, N.Karamzin, D.Defo ("Robinzon Kruzo"), J.Vern ("Arxipelaq alovlanır"), Ç.Dikkens ("Oliver Tvistin macəraları"), N.Bualo ("Poeziya sənəti") və s.

**Adı, yeri –**

Azərbaycan ədəbiyyatşünaslığı və tənqidinin ləkəsizləri sırasında, bu səhayə verdiyi böyük dəyərlərə adekvat olmuş bu alim 1915-ci ildə Şuşada doğulub. 1937-ci ildə ali məktəbi (APİ) bitirib. Yüksək elmi qabiliyyəti, fantastik araşdırıcılıq fəhmi sayəsində SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının aspiranturasına qəbul edilib, Moskva Ali Diplomatiya Məktəbində oxuyub, "İzvestiya" qəzeti və SİTA redaksiyalarında çalışıb. Bakı dönəmində bir sıra mətbuat orqanlarında ədəbi işçi, şöbə müdiri, məsul katib, redaktor kimi fəaliyyət göstərib, paralel olaraq elmi-pedaqoji fəaliyyətlə məşğul olub. Azərbaycan Pedaqoji, Xarici Dillər institutlarında və ADU-da (BDU) müəllim, kafedra müdiri, dekan, Nizami adına Ədəbiyyat İnstitutunda şöbə müdiri vəzifələrində çalışıb.

Fəaliyyətə əsrin 30-cu illərində başlayaraq, ədəbiyyatımızın aktual məsələlərilə bağlı fundamental araşdırmalar aparan bu maraqlı mütəxəssis qısa zamanda fenomenal tənqidçi kimi tanınıb. "Şair gərək mövzuları saf-çürük etməyi, seçdiyi mövzuya görə yazacağı şeirin həcmini, kompozisiyasını, nədən başlayıb, nədə qurtaracağını müəyyənləşdirsin" – deyən alimin özü də tərifində-tənqidində "yüz ölç, bir biç" qaydalarına sadiq olub, heç nədə nə xəsisliyə, nə təfərrüata varıb.

Bəlkə də bir az mücərrəd səslənən bu son abzasımdan sonra, böyük tənqidçinin M.Ə.Sabir, A.Səhhət və M.Hadinin müqayisəsilə bağlı qeyri-adi mülahizə-mühakiməsinə diqqət yetirək: "Sabir poeziya səmasında əbədidir, yandıqca parlayır, parladıqca aydınlaşır və daha gur şölə saçır, şüasının əhatə və təsir dairəsi genişdir, tükənməzdir, həmişə fealdır. Hadi çox tez parlamış, gözləri qamaşdıran bir işıq saçmış, tez də ziyasını itirmiş və sönmüş ulduzdur, lakin poeziya səmasından silinməmişdir, öz tutduğu məqamında o, yenə vardır. Amma onu görmək istəyənlər əvvəlcə aydınlaşdırıcı cihazlarla silahlanmalı, özünü işıqlandırmalı, sonra görməlidirlər. Görə bilsələr, o zaman hiss edərlər ki, o sönmüş ulduz da içəridən nəfəs alır. Bəli, Sabir poeziya göylərində hamının gördüyü və görəcəyi ulduzdur, Hadi isə onu görə bilənlərin ulduzudur. Bu iki ulduzun arasında öz sakit və aramlı işığını bir qaydada saxlayan sıravi bir ulduz da var, o – Səhhətdir, incə, əhəstə və təmkinli qələm sahibi Səhhət..."

**Yazımın sonavarımında –**

neçə-neçə sanballı, mükəmməl tədqiqat, elmi-populyar, portret-publisistik əsərlər ("Nizami və dünya ədəbiyyatı", "Lirikanın qüdrəti", "Anri Barbüs", "Hötе Nizami haqqında", "Sənətkarlıq məsələləri", "Sənətin tərənnümü" və s.), "...hər dəfə yeni bir şeir-poema oxuyanda, düşünməli olursan; "axı, poeziya nədir"? Cavablar çoxdur, amma belə bir cavab da var – poeziyanın öz cavabı: hər bir kamil poetik əsər "poeziya nədir" sualına cavabdır" kimi qənaətlər müəllifi haqda belə bir nostaljilik: sağlığında neçə-neçə qiymətli müəllif kitabları və tərcümə əsərləri nəşr etdirmiş bu azman alimin vəfatından sonra... bu gün də, gələcəkdə də faydalana biləcəyimiz bircə kitabı belə işıq üzü görməyib...

Heç o özü də – dünyasını dəyişdiyi bu otuz ildə (100 illiyi münasibətilə dərc edilmiş bir-iki məqalə istisnası ilə) işıq üzü, mətbu-efir-ekran qisməti görmür. Günahkarlardan biri də – bəndəniz: bir vaxtlar çalışdığım (1976-94) AzTV-də rəhbərlikdən bu ədəbiyyat-sənət patriotu (hakimiyyətinsə qatı yarınmayanı!) haqda sanballı bir portret-verilişə razılıq ala bilmədim. 1988-də milli Azadlıq hərəkatı... və uzun illər beynimdə gəzdirdiyim "Açıq auditoriya MÜƏLLİMİ" adlı o xəyal-verilişim kamına yetmədi.

Və indi onun "Ruhuna açıq məktub" düşüncəmdən bircə cümlə: Əkbər müəllim, nədən Siz bu uzun illərdə böyük alim, məmur, jurnalist, biznesmen olmuş saysız-hesabsız tələbələrinizə kimsəsizlərdən də yazmaq, danışmaq "elm"ini də öyrətmədiniz?..

**Tahir ABBASLI**

## Bir əsərin tarixçəsi

Qədim tarixə və özünəməxsus bədii ənənələrə malik olan Azərbaycan monumental-dekorativ sənətinin müstəqillik illərində yeni mövzularla zənginləşməsi nə qədər yaradıcılarımızın axtarışları ilə bağlıdırsa, bir o qədər də milli incəsənətimizin ideologiyaya təslimçilikdən azad olması ilə əlaqədardır. Qan yaddaşımıza hopmuş mənəvi dəyərlərimizin öz əksini tapması həm də zamanında yaşananların gələcək nəsillərə əyani şəkildə ötürülməsi baxımından dəyərlidir. Belə əsərlərdən biri – “Azərbaycan toyu” adlanan divar rəsmi (müəllifi Fərman Hüseynovdur) Şəmkir Rayon Tarix-Diyarşünaslıq Muzeyinin interyerində çəkilmişdir. Muzeyin ekspozisiyasına girişi təşkil edən foyedə çəkilən əsər tempera rəngləri ilə işlənməklə 93,5 kvadratmetr (17 m x 5,5 m) sahəni əhatə edir.

# “Azərbaycan toyu”nda tərənnüm olunan milli adətlərimiz



Qədim miniatür üslubuna ənənə və müasirlik prizmasından yanaşma ilə yaradılan bu əsər iri həcminə və bədii şərhinin memarlıqla əlaqəli təqdimatına görə monumental xarakter daşımaqla yanaşı, özündə muzey ziyarətçilərinin az sonra ekspozisiyada ətraflı məlumat alacaqları Azərbaycanın tarixi və etnoqrafiyası, zəngin məişəti, xalq yaradıcılığı və sənətkarlığı barəsində zövqlə işlənmiş süjetli kompozisiyanı ehtiva edir. Başqa sözlə desək, 74 fiqurlu bu kompozisiya xalqın böyük el şənliyinə çevrilən adət-ənənəsinin qorunmasında və təbliğində önəmli əyani bədii vasitə kimi çıxış edir.

Ailəni bütün dövrlərdə bütövlüyü və paklığı özündə ehtiva edən “kiçik dövlət” anlamında qəbul edən Azərbaycan xalqının bu mədəni-etnoqrafik prosesə xüsusi yanaşmasında ilk növbədə nəslin davamının uğurlu olmasına, qurulan yeni ailənin möhkəmliyinə zəmin yaratmaq istəyi durur. Fərman Hüseynovun divar rəsmi məhz vurğuladığımız ənənələrin bədii tutumda əyaniləşdirilməsi və təbliği baxımından əhəmiyyət kəsb edir...

Üfüqi kompozisiyanı iki hissəyə bölən rəssam sağ tərəfdə oğlan, solda isə qız evində baş verən hadisələri təsvir etmişdir. Şəmkir minarəsinin (XI əsr) fonunda cərəyan edən kompozisiyanın başlanğıcını oğlan evindən qız evinə elçiliyə gedən hədiyyəli dəvə karvanının yola salınması səhnəsi təşkil edir. Arxasınca xeyir-dua və aydınlıq mənasında su səpilən elçi karvanının apardığı hədiyyələrin sırasında ilk növbədə milli mədəniyyətin rəmzi kimi xalçaların və zamanında ən qiymətli ərməğan sayılan əlyazmaların-kitabların, sonda isə yeni qurulan ailəyə maddi dəstək mənasında qızıl əşyalarla yüklənmiş dəvənin təsvirinin özündə müəllifin bu sıralanma ilə Azərbaycan xalqının dəyərlərə münasibətini, nə dərəcədə önəm verdiyini göstərməyə çalışmışdır.

Bu təsvirin davamını rəssam baş tutmuş uğurlu elçiliyin cərəyan etdiyi qız evində göstərmişdir. “Qız evi” və “Qız evində toy” kompozisiyalarını həm də sevgi və maddi mədəniyyətə ehtiram məkanı kimi təqdim edən müəllif bunu həm bu izdivacı eyvandan izləyənlərin və onun baş tutmasına sevinənlərin, o cümlədən əli gül-çiçəkli qızın nikbin ovqatında, çalıb-oxuyanların və şadyanalıq edənlərin davranışlarında, məkanın kaşılı-şəbəkəli nəfis tərtibatında, rəfləri bəzəyən məişət əşyaları – el sənətkarlığı nümunələrində ifadə etməyə nail olmuşdur...

“Oğlan evində toy” mərasimini də bir neçə süjetlə ifadə edən rəssam ümumi görünüşündə dəbdəbə duyulan interyerdə “xoşbəxtlik taxtı”nda əyləşmiş bəylə gəlini əhatələyən və şadyanalıq edən çoxsaylı toy-mərasim iştirakçılarını – musiqiçiləri və məşhur “Yallı” rəqsinin duyğulandırıcı ruhuna qol qaldıranları təsvir etmişdir. Azərbaycan təbiətinin ecazkar mənzərəsinin – Şəmkir çinarının, quş yuvalarının, eləcə də toy hazırlığının və milli mətbəxin təsviri bu motivin daha təsirli və təbii alınmasını şərtləndirmişdir. Bu möhtəşəmlik və füsunkarlıq, eləcə də yuvaya-evə bağlılıq müəllif tərəfindən yeni qurulan ailənin də bu cür olacağı arzusu ilə verilmişdir. Çoxfiqurlu süjetin mərkəzi hissəsində – təbiətin qoynunda müəllifin görüntüyə gətirdiyi dörd fiqur da, ədəbiyyatı, musiqini və rəssamlığı rəmzi ifadə etməklə yanaşı, toy mərasiminin ümumi nikbin ruhu ilə səsləşir.

Divar rəsminin zəngin tutumlu süjeti Azərbaycan xalqının həyatının ayrılmaz hissəsi olan toy məclisinə həsr olunsa da, əslində, onun kompozisiyası bütünlükdə milli mədəniyyətin və etnoqrafiyanın ayrı-ayrı sahələrini – miniatür rəssamlığı, xalçaçılıq, şəbəkə, misgərlik, ağacoyma və dulusçuluq sənətlərini, musiqi və rəqs mədəniyyətini, geyim və mətbəx zənginliyini əhatə edir. Süjetin məna-məzmun daşıyıcıları olan obrazların “tanınma nişanı”na çevrilmiş milli geyimlərdə təqdimatı, süjetin fəlsəfi tutuma bələnmiş rəmzi-şərti vasitələrlə ifadəsi və füsunkar-nağılvarı Azərbaycan təbiəti və memarlığı ilə əlaqələndirilməsi də məqsədli olub, kompozisiyanın əski ənənələrdən qaynaqlanan koloritli məzmun yükünə və ab-havasına duyğulandırıcı ruh vermək istəyini ifadə edir.

İriölçülü divar rəsminin binanın memarlığı ilə uğurlu sintezinin tapılması çoxfiqurlu kompozisiyanın monumentallığını təmin etmişdir. Qədim miniatür üslubuna yaradıcı münasibətlə ifadə olunmuş bu əsər həm də özündə yüksək icra sənətkarlığını ehtiva etdiyindən, onu dünyada mövcud olan miniatür üslublu divar rəsmləri arasında ölçü və bədii-estetik dəyər baxımından unikal, oxşarı olmayan nümunə saymaq olar.



Odur ki, yuxarıda divar rəsminə yönəlik vurğulanan müsbət bədii məziyyətlərin qarşılığında onun “Ginnesin rekordlar kitabı”na daxil edilməsi məsələsi gündəliyə gəlmişdir. Artıq bu istiqamətdə addımlar atılmaqdadır. Bu məqsədlə ötən il rəssam-ekspertlərdən ibarət yaradıcı heyət Şəmkirdə olmuş, monumental sənət əsərinin bədii məziyyətlərini nəzərdən keçirməklə, onun barəsində müsbət rəy yazmışlar. Hazırda müvafiq orqanlara təqdim olunacaq sənədlərin hazırlanması prosesi gedir. İnanırıq ki, Azərbaycan rəssamı Fərman Hüseynovun ərsəyə gətirdiyi bu kamil sənət nümunəsi barəsində xoş müjdə alacağıq...

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi**

## Xatirə təqvimi

27 fevral – 1 mart

### Azərbaycan

**27 fevral 1901** – Xalq yazıçısı Əli Qara oğlu Vəliyev (1901 – 2.2.1983) Yelezavetpol quberniyası Zəngəzur qəzasının (indiki Ermənistanın Sisyan rayonu) Ağudi kəndində anadan olub. 1918-ci ildə ailəsi Qubadlı rayonuna köçüb. “Nənəmin cəhrəsi”, “Qarlı dağlar”, “Ürək dostları”, “Anaqız”, “Narahat adam”, “Ötən günlər” və s. kitabların müəllifidir.

**27 fevral 1984** – Aktyor, teatr rejissoru Eldar Həsən oğlu Əliyev (1936-1984) vəfat edib. “Dəli Kür” (Rus Əhməd), “Mən ki gözəl deyildim” (Çingiz) və s. filmlərdə çəkilib.

**28 fevral 1894** – Xalq artisti Mustafa Həşim oğlu Mərdanov (1894 - 28.12.1968) Cənubi Azərbaycanın Mərənd şəhərində doğulub. Tiflis Azərbaycan Teatrında, Bakıda Milli Dram Teatrında çalışıb. “O olmasın, bu olsun”, “Əhməd haradadır?”, “Qanun naminə” və s. filmlərdə çəkilib. Azərbaycan Teatr Cəmiyyətinə rəhbərlik edib.

**28 fevral 1908** – Türkoloq, filologiya elmləri doktoru Hadi İsmayıl oğlu Mirzəzadə (1908-1965) Bakıda anadan olub.

**28 fevral 1918** – Xalq artisti Sofiya Bəşir qızı Bəsirzadə (Vəzirova; 1918 - 4.1.2000) Kazan şəhərində doğulub. Milli Dram Teatrının aktrisası olub. “Şərikli çörək”, “Romeo mənim qonşumdur”, “Yol əhvalatı” və s. filmlərdə çəkilib.

**28 fevral 1944** – Əməkdar artist, müğənni Nəzakət Məmmədova (1944 – 21.10. 1980) Gəncədə anadan olub. Opera və Balet Teatrının solisti olub, muğam, mahnı və təsniflərin mahir ifaçısı kimi tanınıb.

**28 fevral 2004** - Əməkdar artist, müğənni Rəhilə Həsənova (9.2.1925 - 2004) vəfat edib.

**1 mart 1920** – Azərbaycanın ilk rəsmi informasiya qurumu – Azərbaycan Dövlət Teleqraf Agentliyi (AZƏRTAC) fəaliyyətə başlayıb. Sovet hakimiyyəti illərində müxtəlif adlar altında fəaliyyət göstərib. 2000-ci ildən Azərbaycan Dövlət Teleqraf Agentliyi adlandırılıb.

**1 mart 1952** – Əməkdar incəsənət xadimi, kinoşünas, kinodramaturq Aydın Ərşad oğlu Dadaşov (1952 – 15.3.2017) Ağdamda doğulub. Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

### Dünya

**27 fevral 1807** – Amerika şairi Henri Uodsuort Lonqfello (Henry Wadsworth Longfellow; 1807-1882) anadan olub.

**27 fevral 1902** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1962) laureatı Con Steynbek (John Ernst Steinbeck; 1902 - 20.12.1968) anadan olub. Əsərləri: “Qəzəb salxımları”, “Edemdən şərqə”, “Siçanlar və insanlar haqqında” və s.

**27 fevral 1912** – İngilis şairi və yazıçısı Lourens Darrel (Lawrence Durrell; 1912-1990) anadan olub. Qardaşı Cerald Darrellə birlikdə heyvanlar haqqında məşhur əsərlərin müəllifidir.

**27 fevral 1913** – Rus şairi Sergey Vladimiroviç Mixalkov (1913 - 27.9.2009) anadan olub. SSRİ-nin dövlət himninin sözlərinin müəllifi olub.

**27 fevral 1932** – Amerika aktrisası Elizabet Teylor (Elizabeth Rosemond Taylor; 1932 - 23.3.2011) anadan olub. İki dəfə “Oskar” mükafatına layiq görülüb.

**28 fevral 1533** – Fransız filosofu və yazıçısı, İntibah dövrünün məşhur mütəfəkkiri Mişel Monten (Michel de Montaigne; 1533-1592) anadan olub.

**28 fevral 1823** – Fransız tarixçisi, yazıçı və şərqşünas Jozef Ernest Renan (Joseph Ernest Renan; 1823-1892) anadan olub.

**28 fevral 1893** – Rus kinorejissoru, SSRİ Xalq artisti Vsevolod Pudovkin (1893-1953) anadan olub. Kinematoqrafiyaya dair əsərlərin müəllifidir, bir çox rejissorların (o cümlədən azərbaycanlı) müəllimi olub.

**28 fevral 1926** – Türk aktyoru Erol Taş (1926-1998) anadan olub.

**1 mart 1445** – İtalyan rəssamı Sandro Bottiçelli (Botticelli; əsl adı - Alessandro di Mariano di Vanni Filipepii; 1445 - 17.5.1510) anadan olub. “Veneranın doğuluşu”, “Yaz” və s. əsərləri İntibah incəsənətinin məşhur nümunələridir.

**22 fevral 1810** – Polyak bəstəkarı və pianoçusu, romantizmin parlaq nümayəndəsi Frederik Şopen (Frederic François Chopin; 1810 - 17.10.1849) anadan olub. Bəzi mənbələrdə doğum tarixi 1 mart göstərilir. Vals, noktürn, ballada, sonata, polonez və digər janrlarda əsərlərin müəllifidir.

**1 mart 1888** – Ukrayna yazıçısı, pedaqoq Aleksandr Sergeyeviç Makarenko (1888-1939) anadan olub. Əsərləri: “Pedaqoji poema” (roman), “30-cu ilin marşı” (povestdə müəllifin Bakıya səfəri, neftçilərin həyatı da təsvir edilib).

**1 mart 1892** – Yapon yazıçısı Ryunoske Akutaqava (1892-1927) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## “Yurdumuza bahar gəlir”

### Uşaqlar üçün rəsm müsabiqəsi

Mədəniyyət Nazirliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə uşaqlar üçün növbəti rəsm müsabiqəsi keçirilir.

“Yurdumuza bahar gəlir” adlı müsabiqəyə 17 yaşadək olan uşaqlar qatıla bilər. Rəsmlərin son qeydiyyat tarixi martın 4-də bitəcək. Seçim iki yaş kateqoriyası üzrə (12 yaşadək və 12-17) aparılacaq. Müsabiqəyə qatılacaq uşaqlar ad və soyadlarını, təvəllüd və əlaqə nömrələrini, oxuduğu məktəb və ya təsviri sənətlə məşğul olduğu tədris mərkəzinin adını qeyd etməklə ən çoxu üç 3 əl işinin fotosunu Xətai Sənət Mərkəzinin 051 310 74 01 nömrəsinə (WhatsApp) göndərməlidirlər.

Xətai Sənət Mərkəzində seçilmiş əsərlərdən ibarət sərginin açılması nəzərdə tutulur.

# “Gələcəkdən gəlmiş qonaq”

### 13 yaşında qazandığı populyarlıq hələ də ona yetir

1985-ci ildə Mərkəzi televiziyada göstərilən 5 seriyalı “Gələcəkdən gəlmiş qonaq” fantastik filmində kiçikdən-böyüyə tamaşaçı sevgisini qazananda onun 13 yaşı vardı. İllər sonra hələ də həmin rəğbət və sevgini yaşamaqdadır...

Natalya Quseva (Muraşkeviç) 15 fevral 1972-ci ildə Moskva vilayətinin Zveniqorod şəhərində anadan olub. Valideynləri incəsənətdən uzaq sahədə çalışırdı – atası fəhlə, anası isə tibb işçisi idi. Özünün də incəsənətə meyli yox idi. O, uşaqlıqdan həşəratları xoşlayırdı, biologiyaya xüsusi marağı vardı.

1983-cü ildə rejissor Viktor Volkov “Heç nədən təhlükə” qısametrajlı filminə məktəbli qız axtarışına çıxır. Rejissor onun oxuduğu məktəbə gəlib siniflərindən seçim etmək istəyəndə, müəlliməsi əlaçı və gözəl diksiyası olduğuna görə Natalyanı məsləhət görür. Bunun ardınca isə M.Qorki adına kinostudiyada məşhur fantast-yazıçı Kir Bulıçevin (İqor Mojeyko) “Yüz il bundan irəlidə” romanı əsasında çəkilən “Gələcəkdən gəlmiş qonaq” fantastik filmində baş rola dəvət alır.

Uşaqlıqdan fantastika ilə maraqlanan Natalya tərəddüd etmədən razılaşır, hətta çəkilişlər zamanı istəyir ki, kaskadyor hərəkətlərini də o özü etsin. Natalya çəkilişdən sonra valideynlərinə deyirdi ki, mənə bu rolu oynamaq o qədər asandır ki, elə bil mən Alisanı yox, həyatımı canlandırıram.

“Gələcəkdən gəlmiş qonaq” 25-29 mart 1985-ci ildə məktəblilərin yaz tətili günlərində teleekrana çıxır və Natalya milyonların sevgisini qazanır. Tezliklə kiçikyaşlı qız sovet kinematoqrafiyasının “böyük adamı”na çevrilir. Onun şəkilləri qəzet, jurnal, açıqca və hətta markalarda da çap olunmağa başlayır. Lakin bu məşhurluq Natalyanı heç dəyişmir. Bundan sonra “Əsrin yarışı”, “Bənövşəyi şar”, “Kainatın iradəsi” və s. filmlərə çəkilsə də, hamının yaddaşında gözəl Alisa olaraq qalır...





1989-cu ildə orta məktəbi bitirərək Moskva Texnologiya Universitetinin Biotexnologiya fakültəsinə daxil olur. 1994-cü ildə ali təhsili başa vuraraq elmi tədqiqat institutunda, bir müddət sonra isə yoluxucu xəstəliklərin təyin edilməsi üçün immunofermental test sistemləri istehsal edən şirkətdə işləməyə başlayır.

Şəxsi həyatına gəlincə, Natalya ilk dəfə 1993-cü ildə Belarusun “Svoy kruq” telekompaniyasının rəhbəri Denis Muraşkeviçlə ailə həyatı qurur. Denis də bir çox gənclər kimi onun “Gələcəkdən gəlmiş qonaq” filmindən pərəstişkarı olmuşdu. 1996-cı ildə onların bir qızı dünyaya gəlir, adını Alesya qoyurlar. Lakin 2001-ci ildə onlar ayrılır. 2013-cü ildə o, “Rusfond”un dizayneri və bədii rəhbəri Sergey Ambinderə ərə gedir. Bu nikahdan da bir qızları (Sofiya) olur.

Natalya təxminən 20 illik fasilədən sonra qısa müddətə kinoya qayıdır. 2009-cu ildə “Alisanın ad günü” animasiya filmində personajlardan birini səsləndirir. Həmçinin “Tökmə” serialına da çəkilir. Amma aktrisalığa artıq elə də maraq göstərmir. Yeniyetmə ikən qazandığı populyarlıq ona yetir. Bu yaxınlarda 47 yaşını qeyd edən Natalya Quseva hazırda işləmir, bütün vaxtını ailəsi ilə birgə keçirməyi xoşlayır.

**Səbinə ƏLİBALAQIZI**

## AFİŞA

27 fevral – 1 mart

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 27 fevral | Ü.Hacıbəyli - “Leyli və Məcnun” (opera) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 1 mart | C.Məmmədquluzadə - “Ölülər ” | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 28 fevral<br>1 mart | R.Ağababayev, A.Ekzüperi – “Balaca şahzadə” (premyera) | 19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 1 mart | F.Dostoyevski – “Karamazov qardaşları” | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 1 mart | A.Lindqren - “Karlson” | 12.00, 14.00 |
| | A.Lindqren - “Karlson” (rus dilində) | 16.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər prospekti 36 - Kukla teatrının binası)**

| | | |
|---|---|---|
| 1 mart | A.B.Kasares - “Qəbir qazma üsulu” | 14.00 |
| | S.Haqverdiyeva - “Metamorfoza” | 18.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 1 mart | “Gənclərə dəstək” layihəsi<br>Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri<br>Dirijor Mustafa Mehmandarov; solistlər: Aydan Salamova (violin), Natəvan Həsənli (qanun), Arslan Növrəsli (tar) | 19.00 |

# ADDIM-la “İki yad adam”



Ölkəmizdəki gənclər təşkilatları arasında aktiv fəaliyyəti ilə seçilən ADDIM Gənclər Təşkilatı fevralın 21-də Bakı Konqres Mərkəzində 6 yaşını qeyd etdi və görkəmli yazıçı, ədəbiyyatşünas Mir Cəlalın “Kəmtərovlar ailəsi” hekayəsinin motivləri əsasında ekranlaşdırılan “İki yad adam” filminin təqdimatını keçirdi.



Təşkilatın sədri Hüseyn Cavadzadə çıxış edərək onlara verilən dəstəyə görə müvafiq qurumlara təşəkkürünü bildirdi. Diqqətə çatdırdı ki, təşkilat gənclərin mədəni istirahətini təmin etmək məqsədilə “Cinema-ya ADDIM-la” və “Teatra ADDIM-la” layihələrini gerçəkləşdirir. Gənclərin xaricdə tanınması üçün “Dünya starı” müsabiqəsi keçirilib. Həmçinin “ADDIM Media Academy”, “ADDIM Actor`s Academy” təlimləri təşkil olunub.

Tədbirdə çıxış edən gənclər və idman nazirinin müavini İntiqam Babayev ölkəmizdə aparılan gənclər siyasətinin müsbət nəticələrindən söz açdı. Bildirdi ki, gənclərə göstərilən bu etimad öz müsbət nəticəsini verir və yeni nəsil öz yaradıcı imkanları, bilik və bacarıqlarını ölkəmizin daha da inkişafı naminə sərf edirlər.

Film haqqında danışan Hüseyn Cavadzadə bildirdi ki, “Kəmtərovlar ailəsi” hekayəsi 60 il öncə yazılmasına baxmayaraq, bu gün də mövzu aktuallığını qoruyub saxlayır. Film 2017-ci ildə Pekində keçirilən “Grand Asian” film festivalında “Ən yaxşı sosial film” nominasiyasında qalib olub, daha sonra isə Azərbaycanda “Mənim ailəm” festivalında baş mükafatı qazanıb. Ekran əsəri Vyanada, Astanada, Tiflisdə nümayiş etdirilib, Bakıda ədibin 110 illik yubileyində təqdim olunub.

Sonra film nümayiş olundu.

Ssenari müəllifi Nicat Dadaşov olan “İki yad adam”da gənc ailənin münasibətləri, daha doğrusu, təmin olunmuş gələcək qurmaq üçün durmadan çalışmaları və elə buna görə də yad adama çevrilmələri əks olunub. Sosial mövzulu filmdə maddiyyat ucbatından bir-birini, demək olar ki, görməyən ikili sonda bunun fərqinə varırlar. Özü də evlərindən oğurluq edən qadının, özünü evin xadiməsi kimi göstərən qonşunun sayəsində...

Filmdə rolları Əməkdar artist Gülşad Baxşıyeva, aktyorlar Duyğu Dəvəli, Riad Abdulov, Faiq Mirzəyev, Fərqanə Quliyeva, Aysel Osmanlı, Vüsalə Məmmədzadə və başqaları ifa edirlər.

Əməkdar artist Gülşad Baxşıyeva film haqqında fikirlərini bölüşərkən bildirdi ki, müasir həyatla səsləşən hekayədə və onun ekran həllində əsas qayə insanları şan-şöhrət, var-dövlət dalınca qaçmaqdansa, öz ülvi hislərini yaşamağa, axıb gedən həyatda öz gəncliklərinin və bir-birlərinin qədrini bilməyə çağırmaqdır.

Təqdimat mərasimində tanınmış incəsənət nümayəndələri də iştirak edirdi.

**HƏMİDƏ**

# Kiyevdə “Böyümeyən uşaqlar” tamaşası göstərilib



Kiyevdə Xocalı soyqırımına həsr olunmuş “Böyüməyən uşaqlar” tamaşası nümayiş olunub. Tamaşa azərbaycanlı jurnalist Elşad Eyvazlının “Böyüməyən uşaqlar” kitabının motivləri əsasında Ukraynanın “Qara kvadrat” teatrı tərəfindən səhnələşdirilib.

Layihə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu, Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresi və Kiyev Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə reallaşıb.

Tamaşanın nümayişindən öncə Xocalı faciəsinin canlı şahidlərindən biri – ukraynalı helikopter pilotu Leonid Kravets çıxış edərək bu qırğından 27 il ötməsinə baxmayaraq, bütün hadisələrin kino lenti kimi gözünün qabağından keçdiyini bildirib. O, Xocalı soyqırımının bədii vasitələrlə daha geniş auditoriyaya çatdırılmasında belə layihələrin əhəmiyyətini qeyd edib.

Daha sonra tamaşa nümayiş olunub. Tamaşanın əsas süjet xəttini müharibələrin, soyqırımlarının insan düşüncəsində buraxdığı ağır izlər təşkil edir.

Layihənin rəhbəri Hikmət Cavadov, ideya müəllifi Murad Cəfərov, quruluşçu rejissoru Yuri Klyatskin, rejissoru Fuad Əliyev, ssenaristi Sergey Fedarçuk, bəstəkarı Türkər Qasımzadədir.

Tamaşanı izləyənlər arasında Azərbaycanın Ukraynadakı diplomatları, Ukraynanın Xalq artisti Vladimir Qrişko, Taras Şevçenko adına Kiyev Milli Universitetinin müəllim və tələbə heyəti, diaspor fəalları olub.

# Milli yeməklərimiz Əbu-Dabidə keçirilən qida festivalında

Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən Beynəlxalq qida festivalında ölkəmiz də təmsil olunub.

Bu ölkədəki səfirliyimizin dəstəyi ilə qurulan pavilyonda səfirliyin əməkdaşları, Əbu-Dabidə yaşayan Azərbaycan icmasının fəal üzvlərinin səyi ilə milli mətbəximiz və mədəniyyətimiz təqdim olunub.

Azərbaycan guşəsində aş, qutab, səbzi, dovğa, UNESCO-nun siyahısına daxil edilmiş lavaş, dolma, həmçinin milli şirniyyatlarımızın nümunələri, Azərbaycanın görməli yerlərini əks etdirən fotostend nümayiş etdirilib. Ziyarətçilər ölkəmizin tarixini, mədəniyyətini və turizm abidələrini, o cümlədən mənzərəli yerlərini əks etdirən suvenirlərlə tanış olublar.

Qonaqlar mətbəx nümunələrimizdən dadıb, mədəniyyətimiz və adət-ənənələrimiz haqqında məlumat əldə ediblər.



# “Oskar”ın sahibləri bəlli oldu



Amerika Kino Akademiyasının sayca 91-ci “Oskar” mükafatının sahibləri fevralın 24-də Los-Ancelesdəki məşhur “Dolby” teatrında keçirilən mərasimdə elan olunub. Bütün dünyaya canlı yayımlanan (Bakı vaxtilə 25 fevral səhər saatlarında) mərasimdə 2018-ci ilin yekunlarına görə kino dünyasının ən yaxşılarının adları açıqlanıb.

“Ən yaxşı aktyor” mükafatına “Bohema rapsodiyası” filmində baş rola görə Rami Malek layiq görülüb, “Ən yaxşı ikinci plan aktyoru” mükafatını “Yaşıl kitab” filmində ifa etdiyi rola görə Maherşal Əli qazanıb.

“Ən yaxşı aktrisa” kateqoriyasında “Oskar” “Favorit qadın” filmində çəkilən Oliviya Kolmana verilib. “Ən yaxşı ikinci plan aktrisa” nominasiyasında isə “Əgər Bill-Srtit danışa bilsəydi” ekran əsərində oynadığı rola görə Recina Kinq qalib olub.

Meksikalı rejissor Alfonso Kuaronun “Roma” filmi xarici dildə ən yaxşı ekran əsəri elan olunub. Kuaron həmçinin “Ən yaxşı rejissor” kateqoriyasında “Oskar” qazanıb.

Ən yaxşı adaptasiya olunmuş ssenari olaraq “Qara klan üzvü” filmi (Spayk Li, Çarli Vatçel, Devid Rabinovits, Kevin Uilmott) seçilib. “Ən yaxşı orijinal ssenari” mükafatı “Yaşıl kitab” filminə görə Piter Farelli, Nik Vallelonqi, Brayan Heyes Karri, “Ən yaxşı animasiya filmi” mükafatı isə “Hörümçək adam – kainatlardan keçərək” ekran əsərlərinə təqdim olunub.



Həmçinin “Ən yaxşı operator” (“Roma”), “Ən yaxşı montaj” (“Bohema rapsodiyası”, rejissor Con Ottman) və başqa nominasiyalarda mükafatlar sahiblərini tapıb.

Gecənin ən həyəcanlı anı isə əsas “Oskar” sahibinin elan edilməsi olub. Culiya Robertsin açdığı zərfin içindən rejissor Piter Farrellinin “Yaşıl kitab”ı (“Green Book”) çıxıb.

Məşhur caz pianoçusu Don Şirli, onun sürücüsü və mühafizəçisi Toni Lipin 1962-ci ildə ABŞ-ın cənubuna səyahəti ilə bağlı real əhvalatlardan bəhs edən “Yaşıl kitab” filmi bu yarışmanın əsas favoriti idi. Film yanvar ayında Hollivud Xarici Mətbuat Assosiasiyası tərəfindən təsis olunan “Qızıl qlobus”u və Amerika Prodüserlər Gildiyasının (PGA) “Ən yaxşı film” kateqoriyasında baş mükafatı qazanmaqla “Oskar”ın bir addımlığına gəlmişdi və “Dolby”dəki mərasim də beləcə sürprizsiz başa çatdı.

**İLONA**

# Vyanada Xocalı soyqırımı qurbanlarına həsr olunan sərgi

Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində fevralın 22-də Xocalı soyqırımının ildönümünə həsr olunan anım tədbiri keçirilib.

Mərkəzin rəhbəri Leyla Qasımova, ölkəmizin Avstriyadakı səfiri Qalib İsrafilov 1992-ci ilin 26 fevralında erməni silahlı qüvvələrinin Xocalıda törətdiyi qırğın barədə məlumat veriblər. Səfir Qalib İsrafilov 613 nəfərin qəddarcasına qətlə yetirildiyi bu hadisənin beynəlxalq hüquq və normalara görə soyqırımı olduğunu vurğulayıb.



Qeyd edilib ki, Azərbaycan dövləti tərəfindən bu faciəyə hüquqi qiymət verilib və soyqırımının beynəlxalq müstəvidə tanıdılması, ona ədalətli qiymətin verilməsi istiqamətində mütəmadi iş aparılır. Bu kontekstdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət!” kampaniyası çərçivəsində görülən işlər diqqətə çatdırılıb.

Milli Məclis sədrinin müavini Bahar Muradova çıxışında bildirib ki, 27 il öncə Xocalı soyqırımını törədənlər hələ də bu bəşəri cinayətə görə ədalət qarşısında mühakimə olunmayıblar. Vurğulanıb ki, indiyədək dünyanın on beş ölkəsində Xocalı faciəsinin soyqırımı kimi tanındığı qərarlar qəbul olunub və bu proses da-



vam edir. Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması bir tərəfdən günahsız qurbanların ruhu qarşısında ədalətin bərpasına xidmət edir, digər tərəfdən isə dünyada bu kimi dəhşətlərin baş verməməsi üçün çağırış rolunu oynayır.

Sonra Azərbaycanın Xalq rəssamı Əşrəf Heybətli mərkəzdə açılan Xocalı soyqırımına həsr olunmuş sərgi barədə məlumat verib. Qeyd edib ki, sərgidə 25 əsər nümayiş olunur.

Tədbirdə yazıçı-jurnalist Səriyyə Cəfərovanın müəllifi olduğu “Onlar heç zaman böyüməyəcəklər” sənədli filmi də təqdim edilib.

# Almaniyada yaşayan rəssam soydaşımızın qeyri-adi əl işləri

Almaniyanın Baden-Baden şəhərində gənc soydaşımız, rəssam-heykəltəraş İlqar Şeydayevin metal və gipsdən hazırladığı heykəl və büstlərdən ibarət sərgisi açılıb.



Tədbirdə Alman Azərbaycan Ziyalılar Birliyinin sədri Naibə Şirinova diqqətə çatdırıb ki, Almaniyanın bir sıra şəhərlərində sərgisi keçirilən soydaşımız maraqlı və qeyri-adi əsərləri ilə tanınır.

Qalereyanın direktoru Peter Deqlov sərgi münasibətilə rəssamı təbrik edərək, əl işlərinin gələn qonaqların böyük marağına səbəb olacağını deyib.

Azərbaycanın Almaniyadakı fəxri konsulu Otto Hauser çıxışı zamanı ölkəmizin qədim tarixindən, zəngin mədəniyyətindən, füsunkar təbiətindən söz açıb. Konsul rəssamın yaradıcılığına yaxından bələd olduğunu söyləyərək əsərlərlə bağlı fikirlərini bölüşüb.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar. Sərgi aprelin 6-dək davam edəcək.

Qeyd edək ki, İlqar Əliqasım oğlu Şeydayev 1984-cü ildə Sibirin Altay bölgəsində dünyaya göz açıb. Uşaqlıq və məktəb illəri Şamaxıda keçib. Bir gün həyətlərində qazılan quyudan çıxan gil balaca İlqarın diqqətini özünə çəkir və o, gildən müxtəlif fiqurlar düzəltməyə başlayır. Orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına daxil olur, görkəmli sənətkarlar Tokay Məmmədov və Fuad Salayevdən sənətin sirlərini öyrənir. 2007-ci ildə ailəsi ilə bərabər Almaniyanın Paderborn şəhərinə köçür. Burada bir çox müsabiqələrdə iştirak edib. İstedadlı heykəltəraş və rəssamın qazandığı uğurlar yerli mətbuatda da mütəmadi işıqlandırılır.

**Lalə AZƏRİ**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5245
**Sifariş:** 761
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.